

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

16 may 2026-cı il, şənbə
№ 085 (7152)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü təşəbbüsü ənənəyə çevrilir

## İlham Əliyev: Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir




Bax səh. 2

## Azərbaycanın tarixi qələbəsi Cənubi Qafqaza sülh gətirir

Bax səh. 3




## WUF13-ə bir gün qaldı...

Bax səh. 5

## YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb



Bax səh. 4

## “Yaşıl artım” hədəflərinə doğru...

Bax səh. 3

### Qlobal Cənub QHT Platforması 100-dən çox ölkəni birləşdirir

Bax səh. 4

### Dayanıqlı maliyyə hesabatı

Bax səh. 5

### Vaşinqton Havana ilə barışır?

Bax səh. 6



## Ermənistan seçim qarşısında: Sülh, yoxsa müharibə?

Bax səh. 6



## Tayvan problemi: hüquq və geosiyasət

Bax səh. 7

# Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü təşəbbüsü ənənəyə çevrilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfərə gəlib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Həzrət Sultan" Muzey-Qoruğu ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına qoruq haqqında məlumat verildi. Bildirildi ki, "Həzrət Sultan" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu 1989-cu ildə yaradılıb. Muzeydəki "Nadir Eksponatlar Zalı" Qazaxıstanın ən əhəmiyyətli muzey və sərgi layihələrindən biridir. Məqsəd orta əsrlər dövrünün nadir tarixi və mədəni irsini qorumaq və təbliğ etməkdir. Muzeydə Türküstanın zəngin tarixi, Türk dünyasının mənəvi irsi və Xoca Əhməd Yasəvi məqbərəsinə aid nadir artefaktlar nümayiş olunur.

## İlham Əliyev: Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir

Hazırda muzey-qoruğun kolleksiyasında 26 mindən çox eksponat var ki, onların da təxminən 80 faizi artefaktdır.

x x x

Sonra Türküstanda yerləşən Xoca Əhməd Yasəvi məqbərəsi ilə tanışlıq oldu. Bura Mərkəzi Asiyanın ən böyük İslam memarlığı abidələrindən biridir və Qazaxıstanın mənəvi rəmzi kimi qəbul edilir. Məqbərə XIV əsrin sonunda görkəmli sufi şair, mütəfəkkir Əhməd Yasəvinin dəfn olunduğu yerdə Əmir Teymurun göstərişi ilə inşa olunub. Vahid memarlıq dizaynına malik bu kompleksdə 35-dən çox müxtəlif təyinatlı otaq yerləşir. Nadir artefaktların saxlanıldığı məqbərə İslam dünyasının mənəvi və mədəni mərkəzlərindən biri hesab olunur.





## Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdirdilər.









Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç.
Hörmətli dövlət başçıları.

İlk növbədə, göstərilən səmimi qonaqpərvərliyə görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Qədim və zəngin tarixi-mədəni irsə malik Türküstan şəhərində olmaqdan çox məmnunam. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olmuşdur. Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır.

Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək olar. Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etmişdir. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir. Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək.

Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.

Hörmətli həmkarlar, Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir. Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.

Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.

Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək.

Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir.

Əziz dostlar, ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonda dövlətimizin başçısı və digər prezidentlər Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsini və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavininin təyin olunması haqqında qərarı imzaladılar.

## Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçılarına Mərkəz barədə məlumat verilib.

Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.

***

Sonra "GovTech" rəqəmsal həllərin təqdimatı oldu. Qazaxıstanda süni intellektin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə qonaqlara məlumat verildi. Eyni zamanda qeyd edildi ki, türk dövlətləri arasında, həmçinin bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var.







# Azərbaycanın tarixi qələbəsi Cənubi Qafqaza sülh gətirir

## Prezident İlham Əliyev 200 illik status-kvonu dəyişdi

Sovet İttifaqının son illərində Cənubi Qafqaz olduqca mürəkkəb və gərgin siyasi proseslərlə üz-üzə qalmışdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkar siyasəti bölgədə uzun illər davam edən müharibənin əsasını qoydu. Qarabağın işğalı təkcə Azərbaycanın deyil, bütövlükdə regionun təhlükəsizliyinə ciddi təhdid yaratdı. Ermənistan daxilində isə bu işğalçı siyasəti həyata keçirən qüvvələr özlərini "qəhrəman" kimi təqdim edərək cəmiyyəti yanlış istiqamətə yönəltdilər. Robert Köçəryan və Serj Sarkisyan kimi siyasi fiqurlar bölgədə sülhün deyil, qarşıdurmanın davam etməsinə xidmət etdilər. Onların fəaliyyəti nəticəsində Cənubi Qafqaz uzun illər ərzində münaqişə, humanitar faciə və siyasi qeyri-sabitlik məkanı oldu.

**Ulu Öndərin əsasını qoyduğu yol...**

Məhz belə bir çətin dövrdə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyinin xilasında mühüm rol oynadı. Onun uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik təmin edildi, nizami ordu quruculuğuna başlanıldı və beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqeyi gücləndirildi. 1994-cü ildə əldə olunan atəşkəs Azərbaycanın öz gücünü toplamasına, iqtisadi və siyasi baxımdan inkişaf etməsinə şərait yaratdı. Mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirib ki, Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan ağır günlərdə öz müstəqilliyini qoruya bilmişdir: "O vaxt əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, xalqımızın, dövlətimizin taleyi çox ağır ola bilərdi. Məhz onun fəaliyyəti nəticəsində bütün mənfi meyillərə son qoyuldu, vətəndaş müharibəsinə son qoyuldu, hakimiyyətsizlik, özbaşınalıq kimi hallara son qoyuldu, ölkəmizdə sabitlik yaradıldı, inkişaf başlandı və yavaş-yavaş ordu quruculuğu da artıq getməyə başladı".

Dövlət başçısı qeyd edib ki, Ulu Öndərin Azərbaycan tarixində həlledici rolu bizim yaddaşımızdan heç vaxt silinməyəcək: "Onun siyasətini davam etdirərək bu gün bax, biz buradayıq, Zəngilandayıq. Düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik".

Heydər Əliyev Azərbaycanın gələcək qələbəsinin strateji təməlini formalaşdırdı. Dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, milli həmrəyliyin təmin olunması və beynəlxalq arenada haqq səsinin çatdırılması sonrakı uğurların əsası təşkil etdi.

**Tarixi missiya tamamlandı...**

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirərək Azərbaycanın qarşısında duran ən böyük tarixi missiyanı yerinə yetirdi. Sovet dövründə Heydər Əliyevə qarşı aparılan təzyiqlərdən və onun siyasi səhnədən uzaqlaşdırılmasından sonra başlanan "Qarabağ hərəkatı"na son verildi. 44 günlük Vətən müharibəsində əldə edilən möhtəşəm qələbə Azərbaycan xalqının milli iradəsinin və dövlət gücünün nümayişi oldu. Azərbaycan Ordusu işğal altındakı torpaqları azad edərək beynəlxalq hüququ öz gücü hesabına təmin etdi. Bununla yanaşı, antiterror tədbirləri nəticəsində separatizmin kökü tamamilə kəsildi və ölkənin suverenliyi tam bərpa olundu. Bu proses Köçəryan və Sarkisyan kimi müharibə cinayətkarlarının siyasi fiaskosu ilə nəticələndi. Vaxtilə bölgəni müharibəyə sürükləyən həmin qüvvələr artıq tarix səhnəsindən silinmiş vəziyyətdədir.

Bu gün Azərbaycan regionda yeni siyasi reallıq yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz qarşıdurma zonasından əməkdaşlıq və inkişaf məkanına çevrilməkdədir. Azərbaycanın təşəbbüsləri regional təhlükəsizliyin təmin olunmasına, iqtisadi layihələrin genişlənməsinə və dayanıqlı sülhün qurulmasına xidmət edir. Artıq bölgədə söz sahibi olan tərəf Azərbaycandır və formalaşan yeni geosiyasi nizam məhz Bakının siyasi iradəsinə əsaslanır.




**Tarixi ədalətsizliyə əsaslanan status-kvo məhv edildi**

Uzun illər ərzində Cənubi Qafqazda formalaşdırılmış status-kvo tarixi ədalətsizliyin nəticəsi idi. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz rejim yaradaraq bu vəziyyəti uzunmüddətli hala çevirməyə çalışırdı. Dünya güclərinin ikili standartları və beynəlxalq təşkilatların passivliyi işğalın davam etməsinə şərait yaradırdı. Lakin Azərbaycan dövləti bu reallığa heç vaxt barışmadı və illər ərzində siyasi, iqtisadi və hərbi gücünü artıraraq tarixi zəfərə hazırlaşdı.

Vətən müharibəsi və sonrakı antiterror tədbirləri nəticəsində təxminən iki əsr boyunca ermənilərin regionda həyata keçirməyə çalışdığı qeyri-hüquqi, ədalətsiz genişlənmə siyasətinin qarşısı qətiyyətlə alındı. Ermənistanın müxtəlif dövrlərdə həyata keçirməyə çalışdığı planlar iflasa uğradı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, bölgədə yeni təhlükəsizlik sistemi formalaşdırdı. Bu qələbə yalnız hərbi uğur deyil, həm də tarixi ədalətin bərpası idi. Azərbaycanın əldə etdiyi nəticə regionun gələcəyini dəyişdirən böyük geosiyasi hadisədir. Artıq Cənubi Qafqazda separatizmə, işğala və xarici müdaxilələrə əsaslanan siyasətin gələcəyi yoxdur. Azərbaycan açıq şəkildə göstərdi ki, bölgədə destruktiv addımlara yer olmayacaq. Sülhə və sabitliyə qarşı yönələn hər hansı təhdid dərhal qarşısını alacaq güclə üzləşəcək. Bu gün regionda təhlükəsizliyin əsas təminatçısı məhz Azərbaycan dövlətidir.

**Ermənistan üçün də yeganə yol sülhdür**

Ermənistan artıq reallığı qəbul etməli və anlamalıdır ki, bölgədə Azərbaycanın təşəbbüsü ilə yaranan sülh prosesi ilk növbədə onun öz maraqlarına xidmət edir. Uzun illər ərzində xarici güclərin təsiri altında olan Ermənistan müstəqil siyasət yürütmək imkanından məhrum vəziyyətdə qalıb. Sovet İttifaqının dağılmasından sonra formal müstəqillik əldə etsə də, ölkə faktiki olaraq müxtəlif mərkəzlərin təsiri altında "forpost" funksiyası yerinə yetirib. Bu siyasət Ermənistanı iqtisadi böhran, siyasi asılılıq və regional təcrid vəziyyətinə salıb. Azərbaycanın təklif etdiyi sülh modeli isə Ermənistan üçün yeni imkanlar yarada bilər. Kommunikasiyaların açılması, iqtisadi əməkdaşlıq və regional layihələrə qoşulmaq Ermənistanın inkişafına ciddi təkan verə bilər. Bunun üçün ilk növbədə revanşist düşüncədən imtina edilməlidir. Azərbaycanın ərazi bütövlüyünə qarşı hər hansı iddialar tam dayandırılmalı, konstitusiyada yer alan əsassız torpaq iddiaları çıxarılmalı və regionda qarşıdurmanı təşviq edən siyasətə son qoyulmalıdır.

Sülh Ermənistan üçün sadəcə siyasi seçim deyil, tarixi zərurətdir. Əgər rəsmi İrəvan yeni reallıqları düzgün qiymətləndirsə, uzun illərdən sonra həqiqi müstəqil dövlət kimi inkişaf etmək imkanı qazana bilər. Əks halda revanşist qüvvələrin təsiri altında qalmaq Ermənistanı daha ağır siyasi və iqtisadi böhranlara sürükləyəcək. Azərbaycan isə öz prinsipial mövqeyini dəyişməyəcək və bölgədə davamlı sülhün təmin olunması üçün qətiyyətli addımlarını davam etdirəcək.

**Ulu Öndərin vəsiyyətini yerinə yetirdik...**

Azərbaycan son illərdə təkcə hərbi deyil, siyasi və diplomatik baxımdan da tarixi qələbə əldə edib. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji yol Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Bununla regionda onilliklər boyu davam edən münaqişə mərhələsi başa çatıb və yeni geosiyasi reallıq yaranıb. İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirib ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi: "Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik".

***P.İSMAYILOV***

# "Yaşıl artım" hədəflərinə doğru...



## Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyinin yaradılması ekoloji, iqtisadi və sosial prioritetlərə çatmağa imkan verəcək

Prezident İlham Əliyevin imzaladığı "Tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" müvafiq fərmana əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyi yaradılıb. Agentliyə tullantıların idarə edilməsi, (yığılması, çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması) və tullantı haqlarının toplanması sahəsində dövlət nəzarətini, tənzimləməni və əlaqələndirməni həyata keçirmək həvalə edilib. Bu qərar ölkədə ekoloji standartların tətbiqi və tullantıların iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədi daşıyır.

### "Təmiz şəhər"in təcrübəsi əsasında

Hazırda Azərbaycan müasir iqtisadi çağırışlara uyğun olaraq sənayenin sürətli inkişafının ətraf mühitə mənfi təsirinin azaldılması və təmiz ətraf mühit prinsipləri əsasında davamlı tədbirlər həyata keçirir. "Azərbaycanın 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əsas hədəflərdən biri "təmiz ətraf mühit və yaşıl artım" prinsipidir. Həmin yanaşma ekoloji tarazlığın qorunması, bərpaolunan enerji mənbələrindən geniş istifadə və "yaşıl texnologiyalar"ın tətbiqi, tullantıların idarə olunması və təkrar emalı sisteminin səmərəliliyinin artırılması və digər məqsədləri nəzərdə tutur. Bu baxımdan tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlərə ciddi ehtiyaclar meydana çıxıb.

Qeyd edək ki, hazırda Azərbaycanda tullantıların idarə edilməsi sahəsində əsas fəaliyyət "Təmiz şəhər" ASC tərəfindən həyata keçirilir. Həmin qurum Bakı şəhəri və Abşeron yarımadasının ekoloji durumunun sağlamlaşdırılmasına xidmət edən tədbirlər planınına uyğun olaraq, tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi ilə məşğul olub. 2009-cu ildən fəaliyyət göstərən bu qurum ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətindəki əldə etdiyi müsbət nəticələr nəzərə alınmaqla, 2021-ci ildən Şuşa şəhərinin ərazisində yaranan bərk məişət tullantılarının yığılması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi də "Təmiz şəhər" həvalə edilib. 2021-ci ilin sonunda isə ASC Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilib. Dövlət başçısının 2022-ci il tarixli fərmanı ilə digər azad ərazilərdə də bərk məişət tullantılarının yığılması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi "Təmiz Şəhər"ə tapşırılıb.

### Təmiz ətraf mühit və "yaşıl enerji" naminə

Ölkənin digər regionlarında isə məişət tullantılarının idarə olunması sisteminin tətbiqi faktiki olaraq yoxdur, yerli kommunal xidmət müəssisələri bu işə vahid və ardıcıl sistem əsasında həyata keçirə bilmir. Ona görə də, tullantıların idarə olunmasında səmərəlilik zənciri pozulur və vahid tənzimləmə sistemi tam ölkə üzrə təmin olunmur.

Təhlillərə görə, 2025-ci ilin statistikasına görə, Azərbaycanda 4,4 milyon ton tullantı yaranıb ki, onun 74 faizi məişət, 26 faizi istehsalat təyinatlıdır. Bu həcmdə tullantı bazasının çeşidlənməsi və idarə olunması vahid koordinasiya tələb edir.

Bu baxımdan yeni yaradılan agentlik bu məsələləri kompleks və vahid bir pəncərə əsasında quracaq. Belə ki, ölkənin digər iri şəhərlərində və rayon mərkəzlərində Balaxanıda mövcud olan çeşidləmə və zərərsizləşdirmə müəssisələrinin infrastrukturlarının qurulması sayəsində tullantıların bütün ölkə boyu eyni standartla toplanması və daşınması təmin olunacaq. Həmin tədbirlər isə "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2027-2030-cu illər üçün Milli Strategiya"sı çərçivəsində həllini tapacaq.

### Yeni agentlik hansı faydaları verəcək?

Agentlik tullantıların idarə edilməsində ekoloji funksiyanı həyata keçirməklə yanaşı, iqtisadi və sosial standartların da tətbiqinə nail olacaq. Belə ki, məişət tullantılarının çeşidlənməsi və emalı ekoloji məqsəd daşımaqla yanaşı, plastik və kağız materialların təkrar emalı, üzvi gübrə istehsalı istehsalını təmin edəcək ki, bu da sırf iqtisadi mahiyyət kəsb edir. Eləcə də elektrik enerjisi istehsalı prosesi yaranmış olacaq. Mütəşəkkil idarəetmə sayəsində yüz min hektarlarla torpaq sahəsi qanunsuz və ya köhnə tullantı poliqonlarından təmizlənərək kənd təsərrüfatı və ya digər məqsədlər üçün yenidən istifadəyə veriləcək. Nəticədə aqrar sənaye üçün gübrə istehsalı mənbələrindən birinin yaranması kənd təsərrüfatı sektorunda yerli təminat səviyyəsinin yüksəlməsinə səbəb olacaq. Tullantıların idarə edilməsindən əldə edilən elektrik enerjisi də mühüm resurs deməkdir. 2025-ci ildə ölkədə istehsal olunan elektrik enerjisinin 222,1 milyon kilovat-saat Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda istehsal edilib. Bu, su elektrik stansiyaları və digər bərpaolunan enerji portfelinin təxminən 9-10 faizi deməkdir. Bölgələrdəki şəhər və rayonlarda Balaxanının nümunəsində Bərk Məişət Tullantılarının Yandırılması zavodlarının yaradılması bu sahədən əldə edilən enerjinin gücünün ən azı 4-5 dəfə artmasına səbəb ola bilər. Bu, məişət tullantılarının emalından ildə ən azı 1 milyard kilovat-saat enerji istehsalı deməkdir. Bu isə "yaşıl enerji" prinsiplərinə çatmaqda hədəflənən dövlət strategiyasının icrasında yeni dayanıqlı resurs nöqtəsi deməkdir.

Beləliklə, yeni agentlik tullantıların vahid mərkəzdən idarə olunmasını həyata keçirməklə, ekoloji mühitin sağlamlaşdırılmasında, təmiz ətrah mühit - "yaşıl enerji" və dayanıqlı inkişaf hədəflərinə çatmaqda mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb














Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası (ÇKP) Şensi vilayət təşkilatının katibi, Şensi vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Çjao İde ilə görüşüb.

Qarşılıqlı etimada söykənən çoxşaxəli əməkdaşlığın hər iki ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olduğu qeyd edilib. Son illərdə sürətlə inkişaf edərək hərtərəfli strateji tərəfdaşlıq mərhələsinə yüksəlmiş dövlətlərarası münasibətlərin nümunəvi xarakter daşıdığı və geniş perspektivlərə malik olduğu bildirilib.

Azərbaycan-Çin münasibətlərinin mühüm istiqamətlərindən biri kimi YAP ilə ÇKP arasında əməkdaşlığın xüsusi diqqət mərkəzində olduğu qeyd edilib. 2024-cü ilin noyabr ayında imzalanmış Əməkdaşlıq memorandumunun partiyalararası əlaqələrin siyasi və hüquqi əsaslarını daha da möhkəmləndirdiyi, yeni imkanlar yaratmaqla tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verdiyi bildirilib. YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Azərbaycan Respublikası Prezidenti yanında





Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının kadr hazırlığı sahəsində təcrübə mübadiləsinə təkan verəcəyinə inam ifadə olunub.

Görüşdə yeni geosiyasi reallıqlar fonunda istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğu nəzərə çatdırılıb. Hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğu və diqqətlə izlənildiyi bildirilib.

Görüş əsnasında Azərbaycan ilə Çinin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olduğu qeyd edilərək regionlararası əməkdaşlıq məsələlərinə də toxunulub. İqtisadi-ticari, turizm, elmi-texniki tərəqqi, təhsil, rəqəmsal texnologiyalar, mədəniyyət və digər sahələrdə mövcud potensialdan daha geniş istifadənin vacibliyi vurğulanaraq sürətli qlobal transformasiyalar dövründə səmərəli investisiya siyasətinin əhəmiyyəti qeyd edilib. Xüsusilə, Sian şəhərinin Çinin ən böyük logistika mərkəzlərindən biri kimi bu prosesdə roluna diqqət çəkilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri fonunda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının uğurla tətbiq edildiyi bildirilib. Çin şirkətlərinin innovativ texnologiyalar, infrastruktur quruculuğu, alternativ enerji, nəqliyyat və sənaye layihələri çərçivəsində bu prosesdə iştirak imkanları müzakirə olunub.

Tərəflər yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Hər iki ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq gələcəyə yönəlik hədəflərin və bu xüsusda yeni işbirliyi imkanlarının müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Şensi vilayətində humanoid robotlar istehsal edən "Zhilaite" texnoloji şirkətinə, Çin-Avropa qatarları üzrə logistika mərkəzinə, Sian Böyük Məscidinə və Sin Şixuandi İmperiya Muzeyinə, o cümlədən Terrakota Ordusu Muzeyinə ziyarəti də təşkil olunub.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin "Şensi" televiziya kanalına müsahibəsində səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

Mayın 15-də YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.

# Qlobal Cənub QHT Platforması 100-dən çox ölkəni birləşdirir

## Bakıda platformanın ilk Baş Assambleyasının keçirilməsi mühüm hadisədir

Ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) keçirilməsi ərəfəsində Bakıda ardıcıl olaraq tədbirlər reallaşdırılıb. Məlumdur ki, "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində indiyədək bir sıra tədbirlər baş tutub. Belə tədbirlərdən biri də Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının keçirilməsidir. Mayın 14-də baş tutan tədbirə Latın Amerikası, Afrika, Asiya, Sakit okean hövzəsini əhatə edən ümumilikdə 114 ölkədən QHT təmsilçiləri qatılıb.

**Platforma hansı məqsədlə yaradılıb?**

Xatırladaq ki, Qlobal Cənub QHT Platforması ötən ilin aprel ayında Bakı şəhərində 100-dən artıq ölkənin nüfuzlu qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə təsis olunub. 2024-cü ilin noyabrında Bakıda COP29 çərçivəsində Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə baş tutan beynəlxalq konfransı zamanı Azərbaycan Milli QHT Forumunun Qlobal Cənub QHT Platformasının yaradılması barədə təşəbbüsü güclü dəstək qazandı. Bununla əlaqədar 140-a yaxın ölkədən 1000 nəfərdən çox QHT təmsilçisi və ictimai fəal birgə bəyanat imzalamışdı. 100-dən çox ölkədən 500-ə yaxın QHT-nin birləşdiyi COP29 QHT Koalisiyasının sonrakı dövrdə Qlobal Cənub QHT Platformasının təsisatlanması məqsədilə təşəbbüs qrupuna çevrilməsi birgə, koordinasiyalı fəaliyyətə ehtiyacı aydın nümayiş etdirmişdi. Bütün bunları nəzərə alaraq belə bir platforma yaradılıb.

Bakıda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının keçirilməsi də bu təşəbbüsün önəmini bir daha təsdiqləyib. Tədbirdə çıxış edən Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Qlobal Cənub dünya arenasında mühüm rol oynayır. Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir. Biz coğrafi, tarixi, mədəni cəhətdən və həmçinin tale etibarilə Qlobal Cənubun bir hissəsiyik. O qeyd edib ki, Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi bütün çətinlikləri və problemləri, o cümlədən tarixi mirası tam və əhatəli şəkildə anlayır. Çünki Azərbaycan da müstəqillik illəri və bütün tarixi boyu bu çətinliklərin və problemlərin hamısından keçib.

Çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev isə deyib ki, bu tədbir təkcə institusional bir mərhələ deyil, həm də Azərbaycanda keçirilən COP29 zamanı yaranan həmrəylik, dialoq və əməkdaşlıq ruhunun, Qlobal Cənubun yaradılmasının davamıdır. Eyni zamanda, Azərbaycanın Cənub-Cənub əməkdaşlığının gücləndirilməsi, dialoq və praktiki fəaliyyət üçün inklüziv beynəlxalq platformalar yaratmaq baxımından davamlı öhdəliyidir. Onun sözlərinə görə, bu platforma dialoq üçün bir məkan olmaqdan daha çoxdur. Bu, fəaliyyət qüvvəsidir. Bu gün Bakıda Baş Assambleyanın keçirilməsi bu vizyonun reallığa çevrildiyinin açıq göstəricisidir.

Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli Qlobal Cənub Platformasının vətəndaş cəmiyyətinin mühüm və qalıcı miraslarından biri kimi qəbul edildiyini deyib. Bildirib ki, platforma artıq beynəlxalq təşkilatlar və nüfuzlu mərkəzlər tərəfindən tanınır.




Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri, WUF13 Təşkilat Komitəsinin üzvü Aygün Əliyeva isə nəzərə çatdırıb ki, bu gün dünya mürəkkəb geosiyasi böhranlar, iqlim dəyişikliyi, humanitar çağırışlar və artan bərabərsizliklərlə üz-üzədir. Belə bir dövrdə Qlobal Cənubun baxış bucağı daha aydın və daha güclü şəkildə eşidilməlidir.

**Azərbaycan təmsilçisi GSNP-nin Baş katibi seçilib**

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Khatib tədbirin əhəmiyyətini qeyd edib. O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin vətəndaş cəmiyyətinin Cənub-Cənub və üçtərəfli əməkdaşlığın inkişafında əvəzolunmaz olduğuna tam inandığını söyləyib.

Tədbirdə, eyni zamanda BMT-nin Təlim və Tədqiqat İnstitutunun Məsləhət Şurasının sədri Luis Gallegos, Somali Prezidentinin müşaviri, "Sadar" İnstitutunun təsisçisi və baş icraçı direktoru Mohamed Osman Mohamoud və İsveçrənin Qlobal Su, Ətraf Mühit və Sağlamlıq İnstitutunun təsisçisi Nidal Salim çıxışlarında qeyd ediblər ki, Qlobal Cənubda sürətli şəhər transformasiyası dövründə forumun ilk dəfə Cənubi Qafqazda keçirilməsi xüsusilə əhəmiyyətlidir.

Tədbir çərçivəsində Qlobal Cənub QHT Platformasının institusional strukturu və fəaliyyət mexanizmlərinə dair çərçivə sənədi qəbul edilib.

Daha sonra Qlobal Cənub QHT Platformasının (GSNP) Baş katibi və regionlar üzrə onun müavinləri seçilib. Azərbaycan təmsilçisi Fuad Kərimli GSNP-nin Baş katibi seçilib. Beləliklə, qarşıdakı 5 il müddətində təşkilata sədrliyi Azərbaycanın QHT təmsilçisi edəcək. Keniya təmsilçisi Mithika Mwenda GSNP Baş katibinin Afrika regionu, Özbəkistan təmsilçisi Bobur Bekmurodov Asiya regionu, Ekvador təmsilçisi Luis Gallegos Latın Amerikası regionu, Filippindən olan Cecile Guidote-Alvarez isə Sakit okean regionu üzrə müavini seçiliblər.

**Yekun bəyannamədə nələr əksini tapır?**

Baş Assambleya çərçivəsində panel iclaslar da keçirilib. Sonda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının yekun bəyannaməsi qəbul edilib. Bəyannamədə qeyd edilib ki, platformanın formalaşması ortaq tarixi zərurətin və dərinləşən qlobal həmrəyliyin məntiqi nəticəsidir. Bu mühüm mərhələnin kökləri Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi və COP29 zamanı yaradılmış əməkdaşlıq ənənələrinə dayanır. Bu əməkdaşlıq mühiti 120-dən çox ölkədən min nəfərdən artıq nümayəndəni birləşdirən beynəlxalq şəbəkənin yaranmasına təkan verib.

Eyni zamanda bildirilib ki, Qlobal Cənubun ortaq maraqlarını daha effektiv qorumaq üçün idarəetmə mexanizmlərinin gücləndirilməsi, regional təmsilçiliyin genişləndirilməsi, Katibliyin rolunun artırılması və ixtisaslaşmış işçi qruplarının yaradılması planlaşdırılır. Regional balansı təmin etmək üçün Baş Katibə 4 regional müavin dəstək verəcək.

Baş Assambleyanın hər il mənzil-qərargahın yerləşdiyi ölkədə toplanması qərara alınıb. Katibliyə rəqəmsal əməkdaşlığı genişləndirmək, bilik mübadiləsini zənginləşdirmək, beynəlxalq donorlarla tərəfdaşlıq imkanlarını araşdırmaq və birgə qrant təşəbbüsləri hazırlamaq tapşırılıb. Beynəlxalq forumların təşkili, gənclərin və yeni vətəndaş cəmiyyəti liderlərinin platformaya cəlb edilməsi, institusional yaddaşın formalaşdırılması və qlobal qurumlara birgə sənədlərin təqdim edilməsi əsas fəaliyyət sahələri kimi müəyyən edilib.

*Nardar BAYRAMLI*

# WUF13-ə bir gün qaldı...

Ümumdünya Şəhərsalma Forumunun (WUF13) başlanmasına sayılı saatlar qalır. Azərbaycan hökuməti ona həvalə və etibar edilmiş bu, mötəbər qlobal tədbirin hazırlıq işlərini yüksək səviyyədə başa çatdırıb və şəhərsalmada həmrəyliyin növbəti nümunəsini beynəlxalq ictimaiyyətə təqdim etməyə hazırdır. 180 ölkədən 32 mindən çox iştirakçının qeydiyyatdan keçdiyi tədbirin təşkilatçılıq işləri COP-29-da olduğu kimi, mükəmməl hazırlanıb. Paytaxtda bütün zəruri infrastruktur tədbirlər planına uyğun olaraq qurulub, nəqliyyatın hərəkəti - metro, avtobus, dəmir yolu, hava limanı ekspress marşrutu, taksi xidmətləri və mikromobillik vasitələri çevik iş qrafikinə uyğun fəaliyyətdədir. Xarici qonaqların nəqliyyatdan istifadəsi üçün ödəniş alətləri və mobil tətbiqlər, QR bilet və NFC təmassız ödəniş vasitələri arxitekturası tam işlək rejimdədir. Ekspress avtobuslar hava limanı ilə şəhər mərkəzi arasında 24 saat fasiləsiz nəqliyyat əlaqəsini təmin etməkdədir.

Tədbir məkanı olan Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub. Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

## Avropa İttifaqı WUF13-ü faydalı beynəlxalq platforma hesab edir

### Bakı yenə ilkə imza atacaq - Liderlərin Zirvə Görüşünü təşkil edəcək

Ölkəmizdə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində regional abadlıq və yenidənqurma işləri genişlənib, şəhər və rayonlarda çoxmənzilli binaların fasadlarının yenilənməsi, yeni səkilərin salınması, fəvvarələrin təmiri və qanunsuz hasarların sökülməsi tədbirləri həyata keçirilib və davam etdirilir. Eləcə də memarlıq irsinin təbliği istiqamətində xüsusi sərgilər, elmi müzakirələr və maarifləndirici tədbirlər təşkil edilir.

"Bakı Şəhərsalma Həftəsi" çərçivəsində təşkil olunan tədbir və beynəlxalq konfranslar da Azərbaycan paytaxtının şəhərsalma problemlərinin həlli, şəhərlərin inkişafı və mənzil siyasətinin həyata keçirilməsi sahəsində böyük təcrübə meydanına çevrildiyini əks etdirir.

WUF13 çərçivəsində tarixində ilk dəfə olaraq Liderlərin Zirvə Görüşünün keçirilməsi də rəsmi Bakının xüsusi təşəbbüskarlığının nümunəsidir. Dünyanın müxtəlif bölgələrində münaqişələrin davam etdiyi, geosiyasi risklərin artdığı bir vaxtda Azərbaycan dövlətinin dünya liderlərini bir yerə gətirməsi və dayanıqlı inkişaf mövzularında səmərəverici müzakirələr təşkil etməsi bütün dünya ölkələri üçün yeni bir nümunə, tərəqqi platformasıdır.

### Aİ Azərbaycanla şəhərsalma sahəsində əməkdaşlığa önəm verir

Foruma dünyanın müxtəlif regionlarından nümayəndələr artıq Bakıya gəlib və digər nümayəndə heyətləri mayın 16-17-da paytaxtda olacaq. Tədbirdə iştirakı nəzərdə tutulan heyətlərdən biri də Avropa İttifaqının (Aİ) yüksək vəzifəli şəxsləridir. Aİ-nin Azərbaycandakı səfiri Mariyana Kuyundziç Avropa Günü münasibətilə keçirilən tədbirdə bildirib ki, WUF13 qitə ölkələri üçün mühüm əhəmiyyət daşıyır. Aİ BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşəbbüslərini dəstəkləyərək dayanıqlı şəhərsalma, "ağıllı şəhərlər" və innovativ şəhər həlləri sahəsində beynəlxalq təcrübə mübadiləsinə xüsusi önəm verir, Bakı Forumunu faydalı beynəlxalq platforma hesab edir.

M. Kuyundziç vurğulayıb ki, Azərbaycan və Avropa İttifaqı arasında şəhərsalma, dayanıqlı inkişaf və regional planlaşdırma sahəsində əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsi də yüksək səviyyədədir. Aİ ekspertləri Azərbaycanda "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin reallaşdırılmasında, ekoloji təmiz, rəqəmsal və yaşıl şəhərlərin planlaşdırılmasında tövsiyələrini təklif edirlər. Aİ-nin məkan planlaşdırılması (spatial planning) üzrə təcrübəsi işğaldan azad edilmiş ərazilərdə infrastrukturun, yaşayış məntəqələrinin və sosial obyektlərin müasir standartlara uyğun yenidən qurulmasında istifadə oluna bilər.

Avropa İttifaqı və Azərbaycan arasında "yaşıl tikinti" və dayanıqlı inkişaf sahəsində əməkdaşlıq də "yaşıl keçid" strategiyasının mühüm hissəsi kimi yer alır. Bu əməkdaşlıq əsasən enerji səmərəliliyi, bərpaolunan enerji mənbələrinin binalarda tətbiqi və beynəlxalq "yaşıl tikinti" prinsipləri tətbiqini əhatə edir. Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası ilə Beynəlxalq Maliyyə Korporasiyası (BMK) arasında əməkdaşlıqda da Aİ əlaqələndirici rol oynamaqdadır.




### OECD heyəti foruma fəal iş planı ilə qatılır

WUF13 çərçivəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən dayanıqlı şəhər inkişafı, iqlim dayanıqlılığı, mənzil siyasəti və məlumat əsaslı şəhər idarəçiliyinə həsr olunmuş bir sıra tədbirlərin təşkili də planlaşdırılır. OECD proqramı çərçivəsində "Şəhər sərgisi", Biznes və İnnovasiya Mərkəzində investorların praktik görüşü, eləcə də beynəlxalq ekspertlər, tədqiqatçılar və yerli tərəfdaşlarla birgə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Həmçinin, OECD-nin "Yerli məlumat portalı" platformasının yenilənmiş versiyasının təqdimatı da olacaq. Bu, mənzil, dayanıqlılıq və davamlı şəhər gələcəyi baxımından mühüm informasiya mənbəyi deməkdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos" ilə tərəfdaşlıq çərçivəsində "Şəhərlərin daha keyfiyyətli məlumatlarla gücləndirilməsi - siyasət və qərar qəbulu üçün ölçətan və praktik məlumatlar" adlı tədbir də təşkil ediləcək. Sessiyada ölçətan və etibarlı məlumatların, rəqəmsal innovasiyaların və geoməkan texnologiyalarının "ağıllı" və dayanıqlı şəhər idarəçiliyində rolu müzakirə ediləcək. Təşkilat forumda öz yeni hesabatını da təqdim etməyi planlaşdırır. Bu tədbirlər beynəlxalq dialoqun gücləndirilməsi, təcrübə və fikir mübadiləsinin təşviqi baxımından mühüm əhəmiyyət daşımaqla bərabər, Bakının dayanıqlı şəhər inkişafı və innovasiya sahəsində qlobal əməkdaşlıq platforması kimi rolunu daha da möhkəmləndirəcək.

**E.CƏFƏRLİ**

# Dayanıqlı maliyyə hesabatı

## Mərkəzi Bank "yaşıl maliyyə" üzrə beynəlxalq əməkdaşlığı daha da genişləndirib

Mərkəzi Bank (MB) "Dayanıqlı Maliyyə Hesabatı - 2025" hesabatını açıqlayıb. Hesabat maliyyə sektorunda dayanıqlı maliyyəyə keçid istiqamətində həyata keçirilən siyasət təşəbbüsləri, institusional tədbirlər və əldə olunan nəticələr barədə sistemli məlumatları əks etdirir. Hesabatın əsas məqsədi maliyyə sektorunun iqlim dəyişiklikləri və digər ekoloji, sosial və idarəetmə amilləri ilə bağlı risk və imkanlara uyğunlaşma səviyyəsinin artırılması istiqamətində görülən işləri ümumiləşdirmək və bu sahədə şəffaflığın təmin edilməsinə töhfə verməkdir. Sənəd maliyyə bazarları iştirakçıları, dövlət qurumları, beynəlxalq tərəfdaşlar və digər maraqlı tərəflər üçün dayanıqlı maliyyə siyasətləri və təşəbbüsləri üzrə etibarlı məlumat mənbəyi kimi nəzərdə tutulur.

İqlim dəyişikliyi və dayanıqlı inkişaf qlobal miqyasda əsas çağırışlardan biri olaraq ölkələrin inkişaf gündəmini formalaşdırır. Bu kontekstdə "Azərbaycan 2030" və "Azərbaycan Respublikasının 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf Strategiyası" ölkədə yaşıl artımın təşviqi, ekoloji tarazlığın qorunması və dayanıqlı inkişafın təmin edilməsini prioritet istiqamətlər kimi müəyyən edir. Ölkənin "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" sənədi bu istiqamətdə əsas hədəfləri müəyyən edir.

**ESİ risklərinin maliyyə sektoruna təsirləri**

Mərkəzi Bank ötən il dayanıqlı maliyyə üzrə beynəlxalq əməkdaşlığı daha da genişləndirib, ekoloji, sosial və idarəetmə (ESİ) amilləri ilə bağlı risklərin maliyyə sektoru üçün artan əhəmiyyətini qəbul edərək ötən il bu istiqamətdə tənzimləyici və institusional çərçivənin gücləndirilməsi üzrə fəaliyyətini davam etdirib. "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"na edilmiş dəyişikliklərə əsasən, bankların yaşıl və dayanıqlılıqla əlaqəli kredit portfelinin idarə edilməsi, kreditlərin qiymətləndirilməsi, monitorinqi, şəffaflığın və hesabatlılığın artırılması məqsədilə müvafiq addımlar atılıb. MB tərəfindən Azərbaycan Banklar Assosiasiyası və Almaniyanın Beynəlxalq Əməkdaşlıq üzrə "Sparkassenstiftung" təşkilatı ilə birgə ESİ Risk Radar alətinin bank sektorunda tətbiqi layihəsi də icra edilir ki, bu alət kredit və müştəri səviyyəsində məlumatların məhdud olduğu şəraitdə ESİ risklərinin ölçülməsi və müqayisə edilməsinə imkan yaradır.

**Külək və günəş elektrik stansiyalarında 162,3 milyon kVt.st artım qeydə alınıb**

2025-ci ildə ölkədə aşağı karbonlu iqtisadiyyata keçid istiqamətində əsas təşəbbüslər bərpaolunan enerji layihələrinin genişləndirilməsi, "yaşıl enerji zonası" konsepsiyasının icrası və daha iddialı emissiya azaldılması hədəflərinin müəyyənləşdirilməsi ilə xarakterizə olunub. Ötən il yeni investisiya qərarları da qəbul olunub, 100 MVt gücündə "Qobustan" günəş elektrik stansiyası üzrə investisiya müqaviləsi imzalanmış, layihə üzrə illik 180 milyon kVt.st elektrik enerjisi istehsalı, 39 milyon kubmetr təbii qaza qənaət və 86 min ton karbon emissiyasının azalması gözlənildiyi açıqlanıb. Bununla yanaşı, 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası üzrə yekun investisiya qərarı qəbul edilmiş və layihənin təxminən 200 milyon ABŞ dolları həcmində olduğu bildirilib. Şəbəkənin çevikliyinin artırılması məqsədilə "Azərenerji" ASC tərəfindən "Abşeron" və "Ağdaş" yarımstansiyalarında ümumilikdə 250 MVt gücündə və 500 MVtsaat tutumlu Batareya Saxlanc Sistemlərinin yaradılmasına başlanılıb. İstilik təchizatı sektorunun dekarbonizasiyası və bərpaolunan mənbələrdən istilik enerjisinin inteqrasiyasının təşviqi üzrə Asiya İnkişaf Bankının texniki yardım layihəsi təsdiq edilib və layihənin ümumi maliyyə dəyərinin 1,1 milyon dolları olduğu açıqlanıb.

İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində günəş və külək elektrik stansiyalarının tikintisi davam etdirilir. "Üfüq" və "Şəms" günəş elektrik stansiyaları, eləcə də irihəcmli külək enerjisi layihələri enerji balansında bərpaolunan mənbələrin payının artmasına və milli müəyyən edilmiş töhfələr sənədi çərçivəsində emissiya azaldılması hədəflərinə nail olunmasına xidmət edir. 2025-ci ildə külək elektrik stansiyalarından enerji istehsalının həcmi əvvəlki illə müqayisədə üç dəfədən çox artıb. Belə ki, 2024-cü illə müqayisədə külək və günəş elektrik stansiyalarında ümumilikdə 162,3 milyon kVt.st artım qeydə alınıb.

**Hibrid avtomobillərin idxalda payı 60 faizə yüksəlib**

Hazırda ölkədə bərpaolunan enerji mənbələri üzrə ümumi quraşdırılmış gücü 1.829,6 MVt olan elektrik stansiyaları fəaliyyət göstərir. Bərpaolunan enerji mənbələrinin ümumi qoyuluş gücündə payının 2030-cu il üçün 30 faiz hədəfindən daha sürətli artaraq 2027-ci ildə 33,7 faizə, 2030-cu ildə 37,9 faizə və 2035-ci ildə 42,5 faizə çatması gözlənilir. Günəş və külək layihələri hesabına illik 6,7 milyard kVt·saat elektrik istehsalı, 1,5 milyard kubmetr qaz qənaəti və 3,2 milyon ton istixana qazı emissiyasının azaldılması hədəflənir.

2025-ci ildə elektrikləşdirilmiş ictimai nəqliyyatın genişləndirilməsi davam etdirilib. Elektrik avtobuslarının yerli istehsalı istiqamətində yeni zavodun qurulması təşəbbüsü nəqliyyat parkının daha sürətli yenilənməsi, idxaldan asılılığın azaldılması və aşağı emissiyalı nəqliyyat vasitələrinin genişləndirilməsi baxımından əhəmiyyətli addım kimi qiymətləndirilir. Aşağı emissiyalı nəqliyyat vasitələrinə keçid bankların avtomobil kredit portfelində də əksini tapıb. Ötən il həm kredit məbləği (75 milyon manat), həm də kredit sayı üzrə göstəricilər 2024-cü illə müqayisədə artım nümayiş etdirib. Artım, xüsusilə kredit sayı üzrə daha nəzərəçarpan olmuş, bu isə kreditləşmə fəallığının genişləndiyini göstərir. Nəticədə, 2025-ci ildə hibrid avtomobillərin idxaldakı payı kəskin şəkildə artaraq 60 faizə yüksəlib.

**2026-cı il üzrə hədəflər**

2026-cı il üçün müəyyən edilmiş strateji hədəflər çərçivəsində Mərkəzi Bank dayanıqlı maliyyə sahəsində həyata keçirilən tədbirlər maliyyə sektorunda dayanıqlılığın gücləndirilməsi, iqlim risklərinin effektiv idarə olunması və "yaşıl maliyyə" axınlarının təşviqi nəzərdə tutulur. Bu məqsədlə cari ildə dayanıqlı maliyyə sahəsində potensialın formalaşdırılması gücləndiriləcək. Bu istiqamətdə bank sektorunda dayanıqlı maliyyə sahəsində bilik və bacarıqların artırılması məqsədilə ixtisaslaşmış təlim proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur. Maliyyə ekosistemin formalaşdırılması istiqamətində kompleks tədbirlər də həyata keçiriləcək ki, bu çərçivədə "yaşıl istiqraz" bazarının inkişafı üçün beynəlxalq standartlara uyğun qanunvericilik bazasının hazırlanması, emissiya və hesabatlılıq tələblərinin müəyyən edilməsi, eləcə də stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Sığorta sektorunda dayanıqlılığın gücləndirilməsi məqsədilə Dayanıqlı Sığorta üzrə Fəaliyyət Planı hazırlanacaq, iqlim risklərinin idarə olunması və ESİ meyarları tətbiq ediləcək.

2026-cı ildə bank sektorunda ESİ risklərinin inteqrasiyasının gücləndirilməsi məqsədilə ESİ Risk Radar Aləti layihəsi çərçivəsinə uyğun olaraq, ESİ təlimatı hazırlanacaq və Risk Radar nəticələrinin kredit qərarlarına inteqrasiyası müəyyən olunacaq, eyni zamanda banklar üçün maarifləndirmə tədbirləri keçiriləcək, pilot layihə çərçivəsində tikinti sektoru üzrə kredit təhlili sualları tamamlanacaq. Risk Radar Aləti üzrə yekun hesabat hazırlandıqdan sonra alətin prudensial siyasətə inteqrasiyası ilə bağlı tədbirlər görüləcəkdir. Bununla yanaşı, maliyyə sisteminin iqlim risklərinə qarşı dayanıqlığının kompleks şəkildə qiymətləndirilməsi məqsədilə keçid riskləri üzrə stres-testlərin həyata keçirilməsi nəzərdə tutulur. Maliyyə bazarlarında şəffaflığın və bazar intizamının təmin edilməsi məqsədilə dayanıqlılıq göstəricilərinin açıqlanması üçün vahid metodologiya işlənib hazırlanacaq. Mərkəzi Kredit Reyestrinə istixana qazı emissiyalarına dair məlumatların inteqrasiyasını təmin etmək məqsədilə müvafiq hüquqi çərçivə formalaşdırılacaq, bu isə maliyyə institutlarının dayanıqlı investisiya və kredit qərarlarını daha səmərəli şəkildə qəbul etməsinə imkan yaradacaq.

Beləliklə, qeyd edilən kompleks tədbirlər maliyyə sektorunda dayanıqlı inkişaf prinsiplərinin daha sistemli şəkildə tətbiqinə və iqlim risklərinin maliyyə sabitliyi baxımından daha effektiv idarə olunmasına xidmət edəcək.













**E.CƏFƏRLİ**

# Ermənistan seçim qarşısında: Sülh, yoxsa müharibə?

İzlənilən proseslərdən o qənaət hasil olur ki, Ermənistanda iyunun 7-nə təyin olunan növbəti parlament seçkiləri sakit məcrada keçməyəcək. Artıq namizədlər paytaxtda və regionlarda müxtəlif tədbirlərə, görüşlərə qatılmaqla öz mövqelərini, ideyalarını, ölkənin perspektivləri ilə bağlı strateji planlarını açıqlayırlar.

Adətən, seçki prosesinin bu mərhələsində marafona qatılan namizədlər cəmiyyətə gen-bol sosial vədlər verməklə rəqiblərindən önə keçməyə çalışırlar. Əlbəttə, Ermənistanda da seçkiqabağı təbliğat-təşviqat kampaniyası sosial vədlərsiz ötüşmür. Lakin aydın görünür ki, bu, əsas məqam deyil. Əsas məqam ondan ibarətdir ki, hakim komandanın və müxalifətin seçki blokları iyunun 7-nə sülh və müharibə gündəliyindən çıxış etməklə gedirlər. Beləliklə, Ermənistan çətin seçim qarşısındadır. Sual isə belədir: Cəmiyyət seçkilərdə sülh, yoxsa müharibə partiyasına “hə” deyəcək?

**Hakim komandanın mövqeyi - utopiyadan “Real Ermənistan” hədəfinə doğru**

Məlumdur ki, Ermənistan cəmiyyəti uzun illər ərzində dənizdən-dənizə “Böyük Ermənistan” xülyasının əsirliyində qalıb. Əsasən nifaq yuvası sayılan kilsədən qaynaqlanan bu çürük ideya ilə “silahlanan” ermənilərin bir neçə nəsli qonşulara - Türkiyəyə və Azərbaycana nifrət, qisasçılıq ruhunda böyüyüb. Bu zəmində otuz illik müharibə baş verib. Birinci Qarabağ müharibəsində maraqlı qüvvələrin, xaricdəki güc mərkəzlərinin havadarlığı ilə qazanılan uğurlar erməniləri “milli ideya” uğrunda daha geniş mübarizəyə ruhlandırıb. Ancaq İkinci Qarabağ müharibəsi Ermənistan cəmiyyətinə ağır zərbə oldu, məğlubiyyət xəyallarını suya salıb əritdi.

Artıq gec də olsa Ermənistan cəmiyyətinin müəyyən kəsimi, o cümlədən də Nikol Paşinyan hökuməti indi Azərbaycanın gücü və iradəsi ilə formalaşan reallığı düzgün dəyərləndirir. Baş nazir müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında dəfələrlə zamanında özünün də bədnam “artsax ideyası”na inandığını açıq şəkildə dilə gətirib. İndi isə o, mövqeyini dəyişib və seçkilərə də utopiyadan, miflərdən uzaqlaşaraq “Real Ermənistan” hədəfi ilə gedir. Reallıqları dərk edən N.Paşinyan həyəcan təbili çalaraq bildirir ki, qonşulara qarşı ədavətin, ərazi iddialarının davam etdirilməsi real Ermənistan üçün ciddi təhlükədir. Bu yol hətta Ermənistanın süqutuna, dövlətçiliyin itirilməsinədək uzana bilər. Seçicilər də bunu düzgün dəyərləndirmədilirlər. Baş nazir “Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir” etirafını dilə gətirməklə yaxın və uzaq xaricdəki maraqlı güc mərkəzlərini, daxildəki revanşistləri əməlli-başlı qəzəbləndirib. Bu günlərdə isə o, daha bir açıqlaması ilə gündəmə gəlib: “Qarabağ heç vaxt Ermənistanın olmayıb”. Torpaqlar orada buğda əkən bir neçə generalın inhisarında qalıb, onların maraqları təmin olunsun deyə ədavət qızışdırılıb, sadə ermənilərin övladları isə həyatlarını qurban veriblər.



Nikol Paşinyan ölkə vətəndaşlarına xitab edərək bildirir ki, siz seçkilərdə onun və “Vətəndaş Müqaviləsi” partiyasının digər təmsilçilərinin namizədliyini dəstəkləməklə regionda müharibə səhifəsinin bağlanmasına, davamlı sülhün təmin olunmasına səs vermiş olacaqsınız. “Vətəndaş Müqaviləsi” partiyasının elan olunmuş seçki proqramının leytmotivi də sülhdür. Xalqa müraciətində partiyasının seçki proqramının əsas ideyasından bəhs edən N.Paşinyan “İyunun 7-də keçiriləcək parlament seçkilərində sizinlə birlikdə bir vəzifəmiz var: sülhü qoruyub saxlamalıyıq, o yenidir, körpədir, hələ də həssasdır, gündəlik qayğımıza ehtiyacı var. İyunun 7-də seçki məntəqəsinə gedin və “Vətəndaş Müqaviləsi” partiyasına səs verərək sülhü qoruyun”, - deyə bildirib.

**Müharibə partiyasının manipulyasiyaları - yeni eskalasiya riskləri yarana bilər**

Hakim “Vətəndaş Müqaviləsi” partiyasının sülh gündəliyinə rəğmən, müharibə partiyası manipulyasiyalarla diqqət mərkəzində olmağa çalışır. Bunu indiki mərhələdə revanşistlərin əsas ideoloqları qismində çıxış edən sabiq prezident Robert Köçəryanın və Rusiyadan məqsədli şəkildə Ermənistana təşrif gətirmiş iş adamı Samvel Karapetyanın seçkiqabağı təşviqat kampaniyasında səsləndirdikləri fikirlərdən də görmək mümkündür. Robert Köçəryan Ermənistana rəhbərlik etdiyi dönəmdə münaqişənin sonuclanmasına imkan verməyib, hər vəchlə çalışıb ki, danışıqlar nəticəsiz qalsın. İkinci Qarabağ müharibəsindən sonra R.Köçəryan açıq şəkildə revanşist çağırışlar edirdi. Seçkiqabağı dönəmdə isə o, Ermənistan cəmiyyətinin yeni bir müharibəyə köklənmədiyinin fərqindədir və buna görə də açıq şəkildə radikal revanşist çağırışlar etməkdən çəkinir. Bununla belə, onun seçicilərlə son günlərdə keçirdiyi görüşlərdə dilə gətirdiyi iddiaların ötən ilin avqustunda Vaşinqtonda əldə olunan razılaşmaların, bütövlükdə sülh prosesinin zədələnməsinə hesablandığını görməmək mümkün deyil. O, Ağ Evdə paraflanan sülh sazişində Ermənistan üçün təhlükəsizlik təminatlarının verilmədiyi kimi iddiadan çıxış edir və hakimiyyətə gələcəyi təqdirdə buna nail olacağını bildirir. Absurd və qərəzli iddiadır. Vaşinqtonda əldə olunan razılaşmalara əsasən hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyır və burada hansısa bir nonsesə ehtiyac yoxdur.

Müharibə partiyasının ən alovlu təmsilçilərindən olan sabiq prezident, həmçinin seçicilər önündə Vaşiqtonda Zəngəzur dəhlizi (TRIPP marşrutu) ilə bağlı əldə olunan razılaşmalara da narazılığını ifadə edib. Otuz il ərzində bağlı qalan kommunikasiyaların blokadadan çıxarılması sülh prosesinin mühüm istiqamətlərindən biridir. Bu layihə bütün region ölkələri, o cümlədən də Ermənistanın özü üçün faydalıdır. R.Köçəryan isə iddia edir ki, layihə indiki şərtlər daxilində Ermənistan üçün faydalı deyil. “Bəlkə də, qaytardılar” xülyası ilə yaşayan sabiq prezident nə istəyir? O, özündə dünyanın bir nömrəli ofisi sayılan Ağ Evdə Donald Trampın şahidliyi ilə əldə olunan mühüm razılaşmaya etiraz etmək cəsarətini haradan tapıb, görəsən? Bəlkə, ona bu cəsarəti bağlı olduğu digər mərkəzlərdən və dairələrdən gələn tezis və tapşırıqlar verir?

Eyni zamanda, R. Köçəryan bildirib ki, indiki hakimiyyətin apardığı siyasətin nəticəsi olaraq Ermənistan geosiyasi alətə çevrilmək riski ilə üz-üzədir. Yenə də sual yaranır: Məgər Ermənistan R.Köçəryanın prezidentliyi dönəmində digər bir qütbün, digər bir güc mərkəzinin geosiyasi aləti qismində çıxış etmirdimi?

Müharibə partiyasının digər təmsilçisi Samvel Karapetyan da eyni mərkəzə bağlı olan fiqurdur və o daha iddialı davranışlar sərgiləyir. Yaratdığı “Güclü Ermənistan” blokunun seçkiləri udacağına əminliyini ifadə edən S.Karapetyan indidən “Mən baş nazir olacağam” deyir. S.Karapetyanın bu iddiasının əsaslı olub-olmadığı, onun tərəfdarlarının qapı-qapı düşüb ailələrə müəyyən məbləğlərdə vəsaitlər ödəmələri və onların səslərini pulla almağa çalışmaları məsələnin başqa tərəfidir. İş ondadır ki, “Güclü Ermənistan” blokunun təbliğat-təşviqat kampaniyası da revanşist mövqeyə əsaslanır. Başqa sözlə desək, R.Köçəryan kimi, S.Karapetyan da cəmiyyətin böyük ölçüdə anti-müharibə ovqatını nəzərə almaqla birbaşa müharibəyə çağırış etməsə də, yeni eskalasiyanın mümkünlüyü ehtimalını da gündəmdə saxlamağa çalışır. S.Karapetyan özünü milli təəssübkeş qiyafəsində təqdim etməklə 2023-cü ildə Qarabağdan Ermənistana könüllü köç etmiş ermənilərin hansısa bir mərhələdə geri qaytarılması, həmçinin Bakıda hüquqi müstəvidə məsuliyyətə cəlb olunan separatçıların azadlığa buraxılması məsələlərini siyasi gündəmdə saxlamağa çalışır. Ermənistanın indiki hakimiyyəti tərəfindən də müzakirələri məqsədəuyğun sayılmayan bu kimi məsələlərin yenidən siyasi gündəmə gətirilməsi əslində sülh prosesinin qapadılması anlamına gəlir ki, bu da S.Karapetyanın, R.Köçəryanın bağlı olduğu dairələrin istəyidir.

**Ermənistan cəmiyyətinin üzərinə düşən böyük məsuliyyət - seçim düzgün edilməlidir**

Sülh partiyası ilə müharibə partiyasının qarşı-qarşıya dayandığı indiki mərhələdə Ermənistan cəmiyyətinin üzərinə böyük məsuliyyət düşür. Hazırda regionda bərqərar olan sülh quruculuğu prosesi məhz qalib Azərbaycanın böyük səyləri sayəsində müəyyən mərhələyədək irəliləyib və Ermənistan cəmiyyəti bunun bəhrəsini görür.

Lakin müharibə partiyasının seçkiləri udacağı və hakimiyyətə gələcəyi təqdirdə keçmişə qayıtmaq, eskalasiya səhifəsinin yenidən açılması perspektivi yaranır. Bunun fəsadlarının nə olacağı bəllidir. Yeri gəlmişkən, Prezident İlham Əliyev bu günlərdə Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdə Ermənistan cəmiyyətinə mühüm mesaj ünvanlayaraq bildirib: “... Biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq”.

Ermənistan seçiciləri bütün bunların fərqində olmalı və 7 iyunda seçimini düzgün etməlidir. Ermənistan Seçki Araşdırmaları Mərkəzinin (ArmES) hazırladığı sorğunun üçüncü mərhələsinin nəticələrinə əsasən, baş nazir Nikol Paşinyanın fəaliyyətinə dəstək 49 faizə yüksəlib. Seçkiöncəsi mərhələdə Ermənistan cəmiyyətində sülh partiyasının platformasına dəstəyin artması isə özlüyündə çox yaxşı siqnaldır.

***Mübariz ABDULLAYEV***

# Vaşinqton Havana ilə barışır?

## ABŞ-dan Kubaya humanitar yardım təklifi...

### Havana yardımı qəbul etməyə hazır olsa da, Vaşinqtonun siyasi şərtləri ilə razılaşmır

Venesuelada məqsədlərinə nail olan ABŞ-ın bölgədə növbəti hədəfi Kubadır. Lakin İranla müharibə Vaşinqtonun Kuba ilə bağlı planlarını təxirə salıb. Bununla belə, hazırda ABŞ Kuba məsələsində diplomatik danışıqlara üstünlük verir. Təsadüfi deyil ki, ABŞ hökumət təyyarəsi mayın 14-də Havana beynəlxalq hava limanından havaya qalxarkən görüntülənib. “Reuters” agentliyinin şahidlərə istinadən verdiyi məlumata görə, bu, ABŞ Prezidenti Donald Trampın Vaşinqton və Havananın danışıqlar aparmaq niyyətində olduğunu açıqlamasından bir neçə gün sonra baş verib.

## Tramp niyə əsəbləşib?

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp martın 5-də bildirmişdi ki, Vaşinqton İrana qarşı hərbi əməliyyat başa çatdıqdan sonra Kubaya münasibətdə sonrakı fəaliyyət kursunun hazırlanması ilə məşğul olmaq niyyətindədir. Əvvəllər o, dəfələrlə ABŞ-ın təzyiqi altında Venesueladan ada dövlətinə neft tədarükünün dayandırılmasından sonra Kuba hökumətinin və iqtisadiyyatının süqut etməyə yaxın olduğunu iddia edib. “NBC News” telekanalı ABŞ rəsmilərinə istinadən məlumat yayıb ki, Prezident Tramp Kuba hakimiyyətinin Vaşinqtonun təzyiqinə təslim olmamasından əsəbiləşib. Qeyd olunub ki, ABŞ administrasiyası Kubaya qarşı sərt sanksiyalar tətbiq edib, vacib resursların tədarükünü məhdudlaşdırıb. Lakin Vaşinqton Kuba Prezidenti Migel Dias-Kanelin hökuməti ilə diplomatik əlaqələri davam etdirir. Eyni zamanda, “NBC News” qeyd edib ki, Kuba hökuməti “hakimiyyətdən imtina etməyə və ya əhəmiyyətli güzəştlərə getməyə hazır olduğunu göstərməyib”.

Mənbələr iddia edir ki, ABŞ administrasiyasının rəsmiləri hərbi müdaxilə olmadan belə Kuba hökumətinin ilin sonuna qədər süquta uğraya biləcəyinə inanırlar: “Ancaq Tramp belə bir müddəti qeyri-kafi hesab edir və Havanaya təzyiq göstərmək səylərinə nəzarət edən Dövlət katibi Marko Rubio da daxil olmaqla, əsas rəsmilərdən narazılığını bildirib”.

Lakin son günlər Tramp Kubaya münasibətdə yumşaq açıqlamalar verir. “Politico” qəzeti ABŞ administrasiyasındakı mənbələrə istinadən yazıb ki, Vaşinqton mövcud hakimiyyəti devirmək üçün Kubada hərbi əməliyyatın keçirilməsi ehtimalını istisna etmir, lakin hələlik diplomatik vasitələrə üstünlük verir. Qeyd olunub ki, ABŞ Kuba hakimiyyətindən dövlət müəssisələrinin özəlləşdirilməsi, xarici investisiyaların rolunun artırılması və ölkə vətəndaşları arasında internetə çıxışın genişləndirilməsi, həmçinin Amerika enerji daşıyıcılarının idxalı daxil olmaqla, iqtisadi islahatların həyata keçirilməsini tələb edir. Nəşrin məlumatına görə, Vaşinqton Havanaya hakimiyyətin tamamilə dəyişməsi üçün vaxt versə də, bəzi rəsmi şəxslərin dərhal istefasını istəyir.



## ABŞ-Kuba danışıqları baş tutub

ABŞ-Kuba münasibətlərində uzun müddətdir davam edən gərginlik fonunda iki ölkə arasında təmaslar xüsusilə diqqəti cəlb edir. Kuba Daxili İşlər Nazirliyi Havanada qurum nümayəndəsi ilə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Retkliff arasında görüş keçirildiyini təsdiqləyib. Amerika nümayəndə heyətinin səfəri ABŞ hökumətinin müraciəti ilə təşkil edilib. Kuba tərəfi nümayəndə heyətinin qəbulunu və Kuba Daxili İşlər Nazirliyinin nümayəndəsi ilə danışıqlarını təsdiqləyib. Nazirlikdən bildirilib ki, görüş mayın 14-də Kuba-Amerika münasibətlərinin çətin vəziyyəti fonunda baş tutub və iki ölkə arasında siyasi dialoqun təşviq edilməsi məqsədi daşıyır. Danışıqlar zamanı Kuba tərəfi Havanadan ABŞ-ın milli təhlükəsizliyinə təhdidin olmadığını təsdiqləyən məlumatlar təqdim edib.

Nazirlik, həmçinin bəyan edib ki, Vaşinqtonun Havana ilə barışığı ABŞ-ın terrorizmi dəstəkləyən dövlətlər siyahısına daxil etməsi üçün heç bir hüquqi əsası yoxdur: “Kuba terrorçu və ya ekstremist təşkilatları dəstəkləmir, maliyyələşdirmir və ya ərazisinə buraxmır. Kuba ərazisində heç bir xarici hərbi və ya kəşfiyyat bazası yoxdur. Ölkə öz ərazisindən ABŞ-a və ya hər hansı digər ölkəyə qarşı düşmənçilik fəaliyyəti üçün istifadə olunmasını dəstəkləməyib və dəstəkləməyəcək”. Bundan əlavə, görüşdən sonra tərəflər iki dövlətin təhlükəsizliyi, eləcə də regional və beynəlxalq sabitlik maraqları naminə hüquq-mühafizə orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildiriblər.

Bu arada ABŞ Dövlət Departamenti Kubaya 100 milyon dollarlıq humanitar yardım göstərməyə hazır olduğunu açıqlayıb. Dövlət Departamentinin açıqlamasında qeyd olunur ki, vəsait əhalini dəstəkləmək üçün istifadə olunacaq, Katolik Kilsəsi və digər humanitar təşkilatlarla əlaqələndirilmiş şəkildə paylanacaq. Təşəbbüs ölkə əhalisinə birbaşa humanitar dəstək göstərməyi hədəfləyir.

Rəsmi Havana isə ABŞ-ın 100 milyon dollarlıq humanitar yardım təklifini nəzərdən keçirməyə hazır olduğunu, lakin bu cür dəstəyin siyasi şərtlərlə gəlməməli olduğunu bəyan edib. Kubanın xarici işlər naziri Bruno Rodrigezin sözlərinə görə, Havana mümkün yardımın Vaşinqton tərəfindən siyasi təzyiq vasitəsi kimi istifadə olunmayacağına ümid edir: “Ümid edirik ki, bu, siyasi manevrlərdən və mühasirə altında olan insanların çətinliklərindən və əzablarından sui-istifadə etmək cəhdlərindən azad olacaq”.

***N. BAYRAMLI***

# Tayvan problemi: hüquq və geosiyasət

Müasir beynəlxalq münasibətlər sistemində Tayvan məsələsi sadəcə regional siyasi problem deyil. Bu məsələ XXI əsrin geosiyasi balansını müəyyən edən, beynəlxalq hüququn fundamental prinsiplərini sınağa çəkən və böyük güclərin strateji rəqabətini açıq şəkildə nümayiş etdirən ən mürəkkəb hüquqi-siyasi böhranlardan biridir. Bu gün Tayvan boğazında müşahidə olunan gərginlik dünya siyasətinin gələcəyinə təsir edən əsas geostrateji xəttə çevrilib. Çünki burada yalnız Çin və Tayvan yox, ABŞ, Asiya-Sakit okean regionu, beynəlxalq ticarət marşrutları, yüksək texnologiyalar bazarı və qlobal təhlükəsizlik arxitekturası toqquşur.

Beynəlxalq hüquq baxımından Tayvan problemi son dərəcə həssas və çoxqatlı xarakter daşıyır. BMT Nizamnaməsinin əsas prinsiplərindən biri dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qorunmasıdır. Çin Xalq Respublikası Tayvanı ayrılmaz hissəsi sayır və "Vahid Çin" prinsipini dövlət siyasətinin dəyişməz elementi kimi təqdim edir. Pekinin rəsmi mövqeyinə görə, Tayvan ayrıca dövlət deyil, Çinin müvəqqəti olaraq mərkəzi hakimiyyətdən kənarda qalmış ərazisidir. Məhz buna görə Çin rəhbərliyi Tayvan məsələsini milli təhlükəsizlik, dövlət suverenliyi və tarixi ədalət məsələsi kimi qiymətləndirir.

Çin üçün Tayvan problemi yalnız ərazi məsələsi deyil. Bu, dövlətçilik ideologiyası, milli birlik və geosiyasi təhlükəsizlik məsələsidir. Pekin hesab edir ki, Tayvanın ayrılması presedent yaratsa, bu, bütövlükdə Çin dövlətçiliyinin strateji təhlükəsizliyinə təsir göstərə bilər. Məhz buna görə Çin rəhbərliyi bu məsələdə son dərəcə prinsipial mövqe nümayiş etdirir və "Vahid Çin" siyasətindən geri çəkilməyəcəyini açıq şəkildə bəyan edir.

Si Cinpin müxtəlif beynəlxalq çıxışlarında Tayvan məsələsini "Çinin qırmızı xətti" adlandıraraq bildirib ki, heç bir qüvvə Çinin yenidən birləşməsinin qarşısını ala bilməz. Bu bəyanat beynəlxalq mediada, xüsusilə "Reuters" tərəfindən geniş işıqlandırılıb və Pekinin Tayvan məsələsində kompromissiz mövqeyinin göstəricisi kimi qiymətləndirilib.

ABŞ isə Tayvan məsələsində daha mürəkkəb və balanslaşdırılmış siyasət həyata keçirir. Vaşinqton rəsmi olaraq "Vahid Çin" siyasətini qəbul etsə də, Tayvanın təhlükəsizliyini və müdafiə imkanlarının qorunmasını vacib hesab edir. ABŞ-ın bu yanaşması beynəlxalq münasibətlərdə "strateji qeyri-müəyyənlik" konsepsiyası kimi xarakterizə olunur. Bu siyasətin əsas məqsədi regionda irimiqyaslı hərbi qarşıdurmanın qarşısını almaq və qüvvələr balansını qorumaqdır. Məhz burada beynəlxalq hüququn ən mürəkkəb dilemması ortaya çıxır: dövlətlərin ərazi bütövlüyü prinsipi ilə xalqların öz müqəddəratını təyinetmə hüququ arasında balans necə qorunmalıdır? Bu sual beynəlxalq hüquq nəzəriyyəsinin onilliklərdir cavab axtardığı başlıca problemlərdən biridir.

Tramp administrasiyası Tayvan boğazında status-kvonun qorunmasını ABŞ xarici siyasətinin əsas prioritetlərindən biri kimi qiymətləndirir. "Reuters"-in yaydığı məlumatlarda qeyd olunur ki, Vaşinqton regionda güc balansının dəyişməsinin qlobal təhlükəsizlik və beynəlxalq iqtisadi sistem üçün ciddi nəticələr yarada biləcəyini hesab edir. ABŞ rəsmiləri Tayvan məsələsində həm çəkindirici təhlükəsizlik siyasətinin, həm də Çinlə birbaşa hərbi qarşıdurmadan yayınmanın vacibliyini vurğulayırlar.

"Reuters"-in məlumatına görə, Tramp administrasiyası Çinlə münasibətlərdə sərt iqtisadi və təhlükəsizlik xəttini davam etdirməklə yanaşı, Tayvan boğazında genişmiqyaslı müharibənin qarşısının alınmasını strateji prioritet hesab edir.

Tayvan məsələsində maraqlı məqamlardan biri də odur ki, beynəlxalq ictimaiyyətin böyük hissəsi Pekinin "Vahid Çin" prinsipini tanıyır. BMT-də Çin Xalq Respublikasının legitim nümayəndə kimi tanınması da bu hüquqi-siyasi mövqeni gücləndirib. Bununla yanaşı, Tayvan dünyanın ən inkişaf etmiş iqtisadiyyatlarından biri, qabaqcıl texnologiya mərkəzi və yüksək demokratik idarəetmə modelinə malik siyasi sistem kimi fəaliyyət göstərir. Bu isə məsələyə əlavə mürəkkəblik gətirir.

Əslində, Tayvan problemi beynəlxalq hüququn klassik prinsiplərinin müasir geosiyasi reallıqlarla toqquşduğu nadir nümunələrdən biridir. Burada hüquq, siyasət, təhlükəsizlik və iqtisadi maraqlar bir-birindən ayrılmaz vəziyyətə gəlib. ABŞ və Çin arasında Tayvan məsələsi ətrafında formalaşan strateji rəqabət də olduqca diqqətçəkicidir. Vaşinqton regionda sabitliyin qorunmasını və güc balansının saxlanmasını əsas prioritet sayır. ABŞ üçün Tayvan yalnız geosiyasi tərəfdaş deyil, həm də yüksək texnologiyalar sənayesinin mühüm mərkəzidir. Dünyanın ən strateji yarımkeçirici istehsalının əhəmiyyətli hissəsi məhz Tayvanda yerləşir. Bu isə məsələyə yalnız siyasi yox, iqtisadi və texnoloji təhlükəsizlik ölçüsü də qazandırır.




Amerikanın təhlükəsizlik və beynəlxalq münasibətlər üzrə aparıcı ekspertləri də Tayvan böhranını XXI əsrin ən təhlükəli geosiyasi risklərindən biri hesab edirlər. Harvardın Kennedy Dövlət İdarəçilik Məktəbinin qurucusu və dekanı, politoloq Graham Allison CNN və digər beynəlxalq media platformalarındakı çıxışlarında ABŞ və Çin arasında Tayvan ətrafında mümkün qarşıdurmanı "böyük güclər arasında təhlükəli strateji tələ" kimi xarakterizə edib. Allisonun fikrincə, Vaşinqton və Pekin arasında nəzarətsiz eskalasiya qlobal təhlükəsizlik sistemini ciddi sarsıda bilər.

Pentaqonun keçmiş rəsmisi, 2018-ci il üçün ABŞ-ın Milli Müdafiə Strategiyasının əsas memarı olan tanınmış siyasətçi Elbric A. Kolbi isə NBC və digər Amerika media platformalarına verdiyi müsahibələrdə bildirib ki, Tayvan boğazında qüvvələr balansının qorunması ABŞ-ın Asiya-Sakit okean strategiyasının əsas elementlərindən biridir. Onun fikrincə, regionda çəkindirici hərbi balansın zəifləməsi Çinin daha sərt addımlar atmasına səbəb ola bilər. Digər bir ekspert - ABŞ-ın Alman Marşal Fondunun (GMF) Hind-Sakit Okean Proqramının idarəedici direktoru Bonni S. Qleyzer isə "Reuters" və beynəlxalq analitik platformalarda yayımlanan müsahibələrində qeyd edib ki, ABŞ və Çin arasında Tayvan məsələsində birbaşa hərbi qarşıdurma ehtimalı tam istisna olunmasa da, tərəflər hələ də idarə olunan strateji balansı qorumağa çalışırlar. Qleyzer düşünür ki, diplomatik kommunikasiya kanallarının açıq qalması regional sabitlik üçün həyati əhəmiyyət daşıyır. Amerikalı təhlükəsizlik analitiki, Karnegi Beynəlxalq Sülh Fondunun baş elmi işçisi Maykl Şeyn də Tayvan məsələsinin beynəlxalq hüquq və təhlükəsizlik baxımından son dərəcə həssas olduğunu vurğulayır. Şeyn hesab edir ki, Vaşinqton və Pekin arasında "strateji qeyri-müəyyənlik" siyasətinin qorunması hazırda mümkün hərbi eskalasiyanın qarşısını alan əsas amillərdən biridir. ABŞ ordusunun Sakit okean qüvvələrinin keçmiş komandanı Filip Devidson isə ABŞ Senatında çıxışı zamanı Tayvan boğazını "yaxın onillikdə dünyanın ən təhlükəli geosiyasi qaynar nöqtələrindən biri" adlandırmışdı. Onun açıqlamaları CNN və "Reuters" daxil olmaqla, beynəlxalq mediada geniş müzakirə olunmuşdu.

CNN International və NBC kimi aparıcı Amerika media platformalarına çıxış edən təhlükəsizlik ekspertləri Tayvan boğazını "dünyanın ən təhlükəli geosiyasi nöqtələrindən biri" adlandırırlar. CNN-də yayımlanan analitik materiallarda vurğulanır ki, Vaşinqton Tayvanın müdafiə imkanlarının gücləndirilməsini regionda çəkindirici balansın qorunması üçün vacib hesab edir. Ekspertlər bildirirlər ki, güclü müdafiə potensialı müharibəyə hazırlıq deyil, əksinə, mümkün müharibənin qarşısını almaq vasitəsidir.

"Reuters"-in beynəlxalq təhlükəsizlik mövzusunda yayımladığı analizlərdə qeyd olunur ki, Tayvan boğazında mümkün hərbi qarşıdurma dünya iqtisadiyyatı üçün son dərəcə ağır nəticələr doğura bilər. Xüsusilə yarımkeçirici sənayesi, beynəlxalq ticarət marşrutları, maliyyə bazarları və enerji təhlükəsizliyi ciddi risk altına düşə bilər. Analitiklərin fikrincə, Tayvan böhranı artıq qlobal iqtisadi təhlükəsizlik məsələsinə çevrilib. Çin isə öz növbəsində Tayvan məsələsinə xarici müdaxilə cəhdlərini dövlət suverenliyinə təhdid kimi qiymətləndirir. Rəsmi Pekin açıq bəyan edir ki, Tayvanın gələcəyi məsələsi Çin xalqının daxili işidir və bu məsələyə kənar müdaxilə regional sabitliyi poza bilər.

Müasir beynəlxalq münasibətlərdə diqqət çəkən mühüm məqamlardan biri də odur ki, həm ABŞ, həm də Çin açıq hərbi qarşıdurmanın bütün tərəflər üçün son dərəcə ağır nəticələr doğuracağını anlayır. Çünki Tayvan boğazında mümkün müharibə qlobal iqtisadi fəlakətə çevrilə bilər. Beynəlxalq ticarət marşrutları, texnologiya bazarları, maliyyə sistemləri və enerji təhlükəsizliyi ciddi zərbə ala bilər. Məhz buna görə Vaşinqton və Pekin arasında rəqabət nə qədər sərt olsa da, tərəflər strateji idarə olunan balansı qorumağa çalışırlar. Bu isə müasir geosiyasətin ən mürəkkəb paradokslarından biridir: böyük güclər həm rəqabət aparır, həm də qarşıdurmanın idarəolunan səviyyədə qalmasına çalışırlar.

Bu mürəkkəb beynəlxalq mənzərədə Azərbaycanın həyata keçirdiyi xarici siyasət xüsusi diqqətə layiqdir. Azərbaycan Respublikası beynəlxalq hüququn fundamental prinsiplərinin, xüsusilə dövlətlərin ərazi bütövlüyü prinsipinin ən ardıcıl müdafiəçilərindən biridir. Azərbaycanın özünün uzun illər işğal problemi ilə üzləşməsi rəsmi Bakının bu məsələlərə yanaşmasını daha da prinsipial edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipi üzərində qurulub. Azərbaycan bütün beynəlxalq platformalarda dövlətlərin sərhədlərinin toxunulmazlığını və suverenlik prinsipini müdafiə edir. Eyni zamanda Bakı həm Çin, həm də ABŞ ilə uğurlu və balanslaşdırılmış münasibətlər qurmağa nail olub. Çin Azərbaycanı mühüm logistika və nəqliyyat qovşağı kimi qiymətləndirir. "Bir kəmər, bir yol" təşəbbüsündə Azərbaycanın rolu Pekin üçün strateji əhəmiyyət daşıyır. Digər tərəfdən, ABŞ da Azərbaycanı enerji təhlükəsizliyi və regional sabitlik baxımından etibarlı tərəfdaş sayır. Azərbaycanın uğuru məhz ondadır ki, Bakı böyük güclər arasında seçim edən deyil, əməkdaşlıq platforması yaradan dövlət modelini formalaşdırıb. Müasir dünyada bu cür balanslaşdırılmış siyasət son dərəcə mürəkkəb diplomatik peşəkarlıq tələb edir.

Tayvan problemi göstərir ki, beynəlxalq hüquq artıq yalnız hüquqi mətnlər və konvensiyalar sistemi deyil. Bu gün beynəlxalq hüquq böyük güclərin strateji maraqları, təhlükəsizlik məsələləri və qlobal iqtisadi reallıqlarla sıx bağlıdır. XXI əsrdə dövlətlərin ərazi bütövlüyü prinsipi beynəlxalq sistemin əsas dayaqlarından biri olaraq qalır. Çünki bu prinsipin zəifləməsi qlobal sabitliyin pozulmasına və beynəlxalq münasibətlər sistemində təhlükəli presedentlərin yaranmasına səbəb ola bilər. Çin öz dövlət suverenliyini və milli birliyini qorumaq istiqamətində qətiyyətli siyasət həyata keçirir. ABŞ isə regionda sabitliyin və strateji balansın qorunmasını prioritet sayır. Maraqlıdır ki, hər iki dövlət öz yanaşmasını beynəlxalq təhlükəsizliyin vacib elementi kimi təqdim edir. Belə mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış və praqmatik siyasət xüsusi strateji əhəmiyyət daşıyır. Bakı emosional qarşıdurma siyasətindən deyil, beynəlxalq hüquqa, əməkdaşlığa və milli maraqlara əsaslanan diplomatiyadan çıxış edir. Bu yanaşma Azərbaycanın həm Şərqdə, həm Qərbdə etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edir.

Nəticə etibarilə, Tayvan problemi XXI əsrin beynəlxalq hüquq sisteminin ən həssas və mürəkkəb sınaqlarından biridir. Bu məsələ göstərir ki, müasir dünya artıq sadə geosiyasi modellərlə idarə olunmur. Beynəlxalq hüququn gələcəyi məhz dövlətlərin suverenliyinə hörmət, strateji balansın qorunması və böyük güclər arasında məsuliyyətli dialoqdan asılı olacaq. ABŞ və Çin qlobal sistemin aparıcı gücləri kimi bu məsuliyyəti daşıyır. Azərbaycan isə uzaqgörən və balanslaşdırılmış siyasəti ilə sübut edir ki, hüquqa əsaslanan diplomatiya müasir dünyanın ən uğurlu strateji modelidir.



*Kəramət QƏNBƏROV*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun "Dirilmə" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Son varianta hazırlıq görmək üçün Nexlyudov ata mülkü olan kəndlərə səfərə çıxır - orada mujiklərlə münasibətləri yenidən tənzimləmək, təsərrüfat işlərini kəndlilərə sərfəli şərtlərlə qaydasına qoymaq lazımdır. Kənddə Nexlyudov, əlbəttə, Tolstoyun torpaq islahatlarıyla bağlı ideyalarını qismən həyata keçirməyə çalışır, təbii sərvətlər üzərində xüsusi mülkiyyəti haram sayan yazıçının sosial arzularına, ictimai ideallarına bir az da yaxınlaşdırır. Ta gəncliyindən Herbert Spenser, Henri Corc kimi sosial mütəfəkkirlərin ictimai-iqtisadi nəzəriyyələrinin təsiri altında olmuş knyaz Dmitri onlardan öyrəndiklərini öz torpaqlarında, təsərrüfatlarında tətbiq eləməyi arzulayır. Kəndlilərin xeyrinə apardığı islahatlar nəticəsində knyaz Nexlyudovun gəliri yarıbayarı azalsa da, o yenə vicdanını kiridə bilmir, başqalarının əməyini istismar elədiyinə görə xəcalət çəkir.

Kəndə səfərindən sonra Nexlyudovun içində indiyəcən yaşadığı mühitə ikrah hissi baş qaldırır. Bu təşəxxüslü kübar adamlar sadə insanların çəkdiyi müsibətlərdən xəbərsiz necə də arın-arxayın, necə rahat, necə harın yaşayırlar. Milyonlarla ac zəhmətkeş bir qrup müftəxoru yemləməkdən ötrü olmazın zülmə qatlaşır, onlarsa bu yazıqların yarasının yerini də bilmirlər.

Peterburqda knyazın işi bir az da artır, Maslovaya görə kassasiya prosesinə hazırlaşmaqla yanaşı Nexlyudov ona Katyuşa vasitəsiylə yol tapmış, katorqaya göndərilməsi nəzərdə tutulmuş bir neçə siyasi məhbusun, üstəlik, rəsmi doktrinadan qırağa çıxıb İncili istədikləri kimi yozmaqda suçlanan, yurdundan didərgin salınıb Qafqaza sürülsü bir qrup sekta üzvünün işləriylə də məşğul olur. Artıq knyaz Nexlyudovun mənəviyyat cəngavərinə, haqq-ədalət mücahidinə çevrilməyindən ötrü hər cür şərait də, sifariş də var, indi onun həyatı gerçək məna, ilahi məzmun daşımağa başlayıb.

***

Paytaxtda o, deyilən işlərdən ötrü bir çox yüksək səlahiyyətli şəxsin yanına ayaq döyür, boynuna düşən vəzifəni yarıtmaq üçün əlindən gələni əsirgəmir. Arada yenə içinə şeytani vəsvəsə dolur, bir səs ona deyir ki, bütün bunlar sənin görməli olduğun işlər deyil, dustaqlara kömək üçün göstərdiyin canfəşanlıq da, Katyuşayla evlənmək istəməyin də, kəndlilərə can yandırmağın da - hamısı, hamısı saxtadır, sünidir, təbiilikdən uzaqdır; sənin vəzifən, missiyan bir başqadır, nə qədər gec deyil, qayıt öz yoluna, əvvəlki həyatına, onsuz da bu yolu sonacan gedə bilməyəcəksən... Nexlyudov şeytanın şərindən qəlbinin nuruyla pası yuyulmuş ağlına sığındıqca anlayır ki, indi getdiyi bu yol onu aydınlığa çıxarası, onu yaşadası yeganə yoldur; əvvəlki həyata qayıdış isə onun mənəvi iflası, ölümü demək olacaq.

Moskvaya qayıdanda Maslovaya xəbər verir ki, senat məhkəmənin qərarını təsdiqlədi, yəni onun Sibirə sürülməsi artıq labüddür. Amma Katyuşa heç ürəyini sıxmasın, hara getsə, knyaz Dmitri onun ardınca gələcək. Göründüyü kimi, süjetin sonu "Cinayət və cəza"nın finalına bənzəyir, fərq yalnız bundadır ki, orada bədnam olunmuş qadın günahkar kişinin - Sonya Raskolnikovun, burada isə suçlu kişi namusu tapdalanmış qadının - Nexlyudov Katyuşanın ardınca könüllü sürgünə gedir.

Bu aralar Katya Nexlyudovu yenidən sevməyə başlayır, hissini gizlətsə də, onun bəyənmədiyi, daha doğrusu, bəyənməyəcəyini düşündüyü (çünki knyaz ona nəyisə irad tutmağı ağlına belə gətirmir, qadını dəyişmək üçün ilk növbədə özünü dəyişməli olduğunu yaxşı anlayır) vərdişlərini tərgidir - şərab içmir, papiros çəkmir, kişilərə naz satmır, Moskvada yatdığı müddətdə knyazın təşəbbüsüylə xəstəxanada müvəqqəti qulluğa girir. Evlənməklə bağlı isə fikri qətidir; ona görə yox ki, sözündən dönmək onun şəstinə toxunur, ona görə ki, Nexlyudova ərə gedərsə, onu bədbəxt eləyəcəyini sövqtəbii başa düşür. Onu da deyim ki, romanın ilkin variantında yazıçı onları evləndirib İngiltərəyə göndərməyi nəzərdə tutsa da, sonra fikrindən daşınıb sonluğu dəyişmişdi. Həqiqətən, elə bir bayağı final bu romana heç yaraşmazdı, Lev Nikolayeviçin qüdrətli fəhmi bunu vaxtında duymuşdu.

Maslovanı əvvəlcə Sibirə sürülən qatı cinayətkarların dəstəsinə qatırlar, sonra Nexlyudovun səyi nəticəsində onu oradan ayırıb siyasi dustaqlara qoşurlar. Bu yerdəyişmə Katyuşanın vəziyyətini xeyli yüngülləşdirir, çünki siyasi məhbuslara münasibət də, onların yerləşdirilməsi, qidalandırılması da adi dustaqlara baxmış xeyli yaxşıdır. Üstəlik, yeni dəstəyə qoşulandan Katyuşanın gözləri də açılır, savadlı, müdrik, çoxbilmiş insanlardan başına gələnlərin mənasını öyrənməyə başlayır. Bütün çətinliklərə baxmayaraq indiki həyatı Maslovanın ürəyincədir, çünki bu həyat onun illər boyu heçəpuça xərclənmiş, ayaqlar altına atılmış ömrünə hansısa məna qazandırmağa başlayıb. Onu yeni aləmə aparan bələdçiləri Mariya Şetinina, Vladimir Simonson adlı siyasi məhbuslardır. Çox keçməmiş Katyuşa Simonsonun ona vurulduğunu hiss eləyir, belə bir qeyri-adi şəxsiyyətin onu öz sevgisinə layiq bilməsi qadının özünə hörmətini artırır, bu etimadı doğrultmaq üçün əlindən gəldiyi qədər yaxşı olmağa çalışır.

***

Bu ara Nexlyudov Peterburqdan xoş xəbər alır: Maslova əfv olunub, cəzası yüngülləşdirilib, ağır katorqa əməyi Sibirdə məskunlaşmayla əvəzlənib. Nexlyudov Katyuşanı müjdələyib deyir ki, indi artıq özlərinə yaşamaq üçün məskən seçə bilərlər, fəqət Katyuşa onunla qalmaqdan inadla imtina eləyir. İndiyədək sevdiyi yeganə kişi knyaz Dmitri olsa da, Maslova Nexlyudovun mərhəmət duyğusunu, borc hissini bundan artıq istismar eləyib onu özünün ömürlük qurbanına çevirmək istəmir. O, Simonsona qoşulub Yakutiya vilayətində sərt sürgün həyatı yaşayacaq, çox güman, gələcəkdə alovlu inqilabçı olacaq, sinfi mübarizədə Nexlyudova düşmən cəbhədə yer tutacaq.

Bəs Nexlyudov özü necə, anadangəlmə təmsil olunduğu cəbhədə qalacaqmı? Hələ ki, o yalnız özüylə tək qalmaq haqda düşünür, yerli mehmanxanadakı otağına çəkilib ingilis səyyahının bağışladığı İncili açıb oxumağa başlayır. Nexlyudov yuxusu ərşə çəkilir, bütün gecəni həyəcanla otaqda var-gəl eləyir. Müqəddəs kitabın ayələri bu dəfə onun qarşısına tamam yeni mənalarla, yeni hikmətlərlə çıxır, bu mənalar, hikmətlər onu təzə bir aləmə, indiyəcən görmədiyi bir dünyaya səsləyir:

"Bu gecədən Nexlyudov üçün tamam yeni həyat başlandı; təkcə ona görə yox ki, o, yeni həyat şəraitinə qədəm qoyurdu, ona görə ki, bu andan etibarən başına gələnlər ondan ötrü əvvəllər olduğundan tam fərqli bir məna kəsb eləyirdi. Onun həyatındakı bu yeni dövrün nəylə bitəcəyini gələcək göstərəcək".

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm









İşə yüyürürsən - iş yerindədi,
Dükana girirsən - vitrindən baxır.
Meyxanadan qovub rədd eləyirsən,
Məscidin önündə qarşına çıxır.

Gah əziz dost kimi girir qollara,
Gah qarşı səngərdə top dalındadı.
Gah dilənçimisal çıxır yollara,
Gah milyonermisal qul halındadı.

Bir əli göydələn saraylar tikir,
Bir əli ehmalca qazır altını.
Söyürəm, əlimdən özgə nə gəlir,
Hərçi - pətərinin yeddi qatını.

Elə qucaqlayıb Yer kürəsini,
Bir küncü - bucağı çıxmır yadından.
Şərqdə müharibə alovlandırır,
Qərbdə dil - dil ötür "barış" adından.

Yerdə sahibidi küll-ixtiyarın,
Mahuyət-ül iblis, surət-ül cindi.
Şahlar ən sevimli oyuncaqları,
Rəiyyət əlində plastilindi.

Yoxmu bu gedişin dönüşü, yoxmu,
Yoxmu bu gərdişin sonu, İlahi?!
Bu şeirdə şeytan barmağı varsa,
Məni bu qələmdən qoru, İlahi!

***

O sevdalı çağlar yadındadırmı?-
Bir mən igidiydim, bir də sən gözəl.
Dünyada mənə tay dəli yoxuydu,
Yoxuydu dünyada sənə tən gözəl.

Bə heç demirsənmi hardadı görən
İpək tellərinə nərgizlər hörən?...
Səniydin onlara yaraşıq verən,
Nə çiçək gözəldi, nə çəmən gözəl.

Sevgi bir yol gələr adama haqdan,-
Sənin divanənəm elə o vaxtdan.
Gözümə ağ gəlib yola baxmaqdan,
Ürəyə xal düşüb, saça dən, gözəl.

Mən ömür sürmədim - vaxtdı, uzatdım,
Sənsizlik adıyla başımı qatdım...
Göynəyə-göynəyə əlliyə çatdım,-
Gülə-gülə ölləm "öl" desən, gözəl.

Gör mən nə saymışam, fələk nə sayıb -
Dönüb sənə baxmaq sayılar ayıb...
Aradan qırx igid ömrü adlayıb,-
Mən həmən dəliyəm, sən həmən gözəl!

Açıb pəncərəni çölə baxanda?
Yenəmi ürkəksən həminki kimi,-
Yenəmi qorxursan şimşək çaxanda?

Kəndə dönürsənmi xəyallarında,-
Yadına düşürmü o payız günü?..
Birlikdə məktəbdən evə dönürdük,
Yeni haqlamışdıq "Sarı körpü"nü.

...Və qəfil başladı leysan tökməyə,
Sel ağzına aldı bərəni-bəndi.
Bir anın içində çay aşıb-daşdı,
İki yerə böldü "İncəsu" kəndi.

Başqa yermi vardı daldalanmağa?-
Qaçıb akasyanın altında durduq.
Birdən çəpərində Osman dayının
İşıq dirəyini ildırım vurdu...

Titrəyib əsirdin həyəcanından,
Tutub əllərindən,- qorxma söylədim.
Qorxulu nağıllar düşdü yadıma,-
Sənin qəhrəmanın olmaq istədim.

Xəyalən özümü çaya vururdum,
Ağaclar axırdı pərli-budaqlı...
Guya köhlənlər də yara bilməyən
Seli yaracaqdım... Eh, uşaq ağlı...

Yadındamı o nur, o ipək qarı?-
Sənəm nənə... Qaşdan bizə baxırdı.
-Ay bala, sətəlcəm olarsınız ki!-
Deyib, əl elədi, evə çağırdı...

Sonrası... Nə deyim, sonrası heç nə,
Buludlar dağıldı, yağış da kəsdi...
Ancaq, ürəyimdə şırım açmağa
Mənə bu xatirə bir ömür bəsdi.

Sizin də məhləyə yağış yağırmı?-
Sular sevişirmi navalçalarda?
Qırx ildi həmincə ağacın altda
Səni gözləyirəm, hardasan, harda?!

Mənim səndən uzaqlarda
Yamandı halım, necəsən?
Özgəsinə qismət olan
Cahı-cəlalım, necəsən?

Yalana döndü gerçəyim,
Ay gözəlim, ay göyçəyim.
Çəmənim, çölüm, çiçəyim,
Pətəyim, balım, necəsən?

Daşam yolun üstə bitən,
Nə sirdi anlamaz yetən.
Gözü, könlü dil-dil ötən,
Dilləri lalım, necəsən?

Zər-zibam, ləlim, gövhərim,
Yaqut-yəmən, simu-zərim,
Barmaqları bəxtəvərim,
Başı bəlalım, necəsən?

Üzün dönməz mənə sarı,
Yarı öz ömründən, yarı.
İbrahimin sitəmkarı,
Necəsən, zalım, necəsən?

***

Hardasan dünyanın halal Adamı,
Hardasan, varmısan?-Səsimə səs ver.
Məndən o tərəfə sən tükənirsən,
Səndən bu tərəfə mənə nəfəs ver.

Məndən o tərəfə, səndən bu yana,
Nə kökdədi dünya, xəbərin varmı?
Tapşırıb yellərə, büküb al-qana,
Bir ürək yollasam sənə çatarmı?

Bilərmisən hankı məmləkətdənəm,
Hansı millətdənəm bilərmisən sən?
Bu aciz halıma ucalığından,
Baxıb acı-acı gülərmisən sən?

Vurnuxub qalmışam dünya içində,
Mənə bir yol salğa özünə doğru.
Qurtulum bəşərin adiliyindən,
Sürünüm mübarək izinə doğru.

Hardasan dünyanın halal Adamı?-
Sən haqsan, sən varsan!-Səsimə səs ver.
Qapında ən sadiq nökərin ollam,
Mənə bu Şahlığı, nolar, tələs ver.

***

Küfr mənlik deyil... Əstəğfürullah! -
Sənə can atıram, sənə, İlahi!
Şeytan bardaş qurub kürəyimizdə,
Aman vermir gələk dinə, İlahi!

Burdan daşlayırsan, o yandan çıxır,
Ordan təpinirsən, burda hazırdı.
Dünən gözlərimlə gördüm, masamda
Əyləşib yerimə şeir yazırdı.

# Dialoqlar

***Dilin diriliyidir.***
***Bəzən, yalan da öyrədə bilir.***



***Məqsəd Nur***

Necəki, bizim bir çox müasir film və seriallarımızdakı dialoqlar öyrədir, bax eləcə. Yalanöyrətmə virusu dilin orqanizmində uzunmüddətli qala bilər (məsələn, nə illah ediriksə, "uje" çıxıb getmir). Sonrası dəqiq məlum deyil. Adətən, dil, toksit və çirkabları kənara atıb lazım olanları götürür. Ümid etmək olardı ki, vaxt gələcək, "uje", "voobşe" və sair bu kimi çər dəymiş kəlmələr əvvəlcə dilimizi, sonra da düşüncəmizi tərk edib yox olacaq, bizə "təbiilik" göstərmək naminə bu sözləri seriallarda dialoqa dürtüşdürən "müəlliflərimiz" də dilimizin müqəddəs məkanında təğyiri-libas olacaqlar. Amma son dövrlərin film və seriallarındakı dialoqlarda artan yalanöyrətməni, "uje", "voobşe"ləri eşitdikcə, xüsusilə bu dialoqlardakı məzmun saxtakarlıqlarına şahid olduqca, dilmizin hansı təhdidlərlə yükləndiyini sezməmək mümkün deyil...

Belə davam etsək, tarixi, coğrafiyanı və ya bu kimi digər elmləri araşdırmağa həvəsi, imkanı, hətta borcu olmayan insanlarımız düşünəcək ki, məsələn, Nadir şah əsgərlərinə deyib:

-Ey azərbaycanlılar, ey mənim xalqım, Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün, indi biz, Kəlbəcər uğrunda döyüşə gedirik! (Nümunə nisbidir.)

Müasir film və seriallarımızda bu kimi dialoq məzmunları nə qədər desən. Xüsusilə uşaqlar üçün tərtib edilmiş yüklü dialoqlar ən yaxşı halda balaca zəkaya "əlçatmaz" görünür. Eyni problem əcnəbi dillərdən tərcümə edilən dublyaj mətnlərindədir. Sanki dilimizə və düşüncəmizə zor, izafi zirəklik, sırtıqlıq pərçimləmək istəyən bir komanda var...

Dildə tapılmayan zəruri sözlər, kənar (qonşu) düşüncə elementləri onun bətnində gəzib-dolaşmalı, vaxtı gələndə isə öz hücrəsinə daxil olmalı, lakin zəhmət çəkib öz yerində oturmalıdır. Bəs müasir kino və seriallarımızda bu qədər yüksək texniki şərtlərlə lentə alınmış, gözəl görüntülər, yaxşı quruluş varkən, bərbad və uydurma dialoqlar, yalançı mətnlər haradan qaynaqlanır? Redaktorlarımız, məzmun tərtibatçılarımız çatmır? Yoxsa rejissorlarımız şifahi düşünür? Bəlkə kitab oxumağa vaxt yoxdur? Ya da gecə-gündüz təkcənə Tarkovskiyə baxmaq, Hollivud xəyalı ilə yaşayıb-yaratmaq yetərlidir? Üstəlik, ssearidəki hər kəlmə üçün "naqqalıq" edə biləcək təcrübəli dil bilicisini dialoqları oxumağa dəvət etmək, çəkiliş meydançasına gətirmək? Yox, bu kimi şeylər işin gedişinə pəl vurur...

Sürət artır, vaxt çatmır, di gəl, ana dilində danışmaq, dialoq yazmaq da lazımdır. Mal adı "serial" olan əmtəə satılmalı, reklam gəlməlidir. Dil isə bu qovhaqovda, fasiləsiz şəkildə, kütləvi halda əndirəbadi dialoqlarla yalanöyrətməyə cəlb edilir. Mən onu tanıyıram, xasiyyətini bilirəm, bir gün, o da - o gözəl Ana dili də durub sizinlə, o cümlədən digər "yadelli işğalçılarla" işləməkdən imtina edəcək. Onda malı kimə satacaqsınız?

# Şəfəqlə başlayan həyat...

Səhərin ilk şəfəqləri pəncərədən içəri süzüləndə sanki həyat yenidən başlayır. Günəş işığı insanın ruhuna toxunur, ümid oyadır və həyatın ritmini müəyyənləşdirir. İşıqsız nə həyat, nə rənglər, nə də zaman anlayışı mövcud olardı. Ümumiyyətlə, təbiətdə hər




şey işıqla nəfəs alır. Ağacların yarpaqları günəşdən güc alır, çiçəklər işığa tərəf boylanır, insanlar isə işığın verdiyi enerji ilə yaşayır. Məhz buna görə qədim zamanlardan işıq müqəddəs sayılıb, həyatın və xeyirin simvolu hesab olunub.

İşıq insan sağlamlığında da mühüm rol oynayır. Günəş şüaları bədənimizə D vitamini verir, əhval-ruhiyyəmizi yüksəldir və bizi daha enerjili edir. Qaranlıq və tutqun günlərdə insanların özünü yorğun və kədərli hiss etməsi təsadüfi deyil. Çünki işıq yalnız gözlərimizi deyil, qəlbimizi də isidir.

2017-ci ildə UNESCO mayın 16-nı Beynəlxalq İşıq Günü elan edib. Həmin il 147 ölkədə elmin, mədəniyyətin, sənətin, tibbin, eləcə də gündəlik həyatda işıq roluna həsr olunmuş 13 mindən çox tədbir təşkil edildi. Günün keçirilməsində əsas məqsəd - işığın insan həyatında, bəşəriyyətdə əvəzsiz rolunu yada salmaqdır.

Bayramın tarixi isə fizik və mühəndis T.Mayman tərəfindən 1960-cı ildə dünyada ilk dəfə lazerin uğurla nümayiş etdirildiyi 16 may tarixi seçilib. Məhz müxtəlif ölkələrin, qitələrin fizika cəmiyyətləri, elmi-tədqiqat institutları və təhsil müəssisələri Beynəlxalq İşıq Günü çərçivəsində tədbirlərin təşkili və keçirilməsi, həmçinin qarşıya qoyulan vəzifələrlə bağlı məsələlərə baxılması və həll edilməsi ilə məşğul olan əlaqələndirmə şurasını yaradıblar.

İşıq texnologiyalarının sənaye və kənd təsərrüfatında, səhiyyədə, mədəniyyət və məişətə qədər hər sahədə tətbiqi geniş imkanlar yaradır. Bununla belə süni işığın, xüsusilə smartfonlar və kompüterlərin ekranlarından gələn işığın dəriyə zərərləri və faydaları son illərin mübahisə yaradan mövzularındandır.

**Süni işığın orqanizmə təsirləri...**

Görülə bilən işıq, gözümüzdə bir reaksiya yaradan işıq enerjisidir və bu 390-789nm ölçüsündə olan işıq dalğalarıdır. Təbii ki, dalğa ölçüsü uzandıqca zərərli təsirləri azalmaqdadır. Mütəxəssislər, 390-440 nm olan mavi işıq dalğalarının insan gözünə zərər verə biləcəyini düşünürlər.

**İnsan dərisinin mavi işığa ehtiyacı var**

Aparılan araşdırmalara görə, mavi işıq bədən hormonlarını tənzimləyərək bioloji ritmi normaya salır. Yeni doğulan uşaqlarda müşahidə edilən sarılıq olaraq bilinən qaraciyərin aktiv hala gəlməsi və bilirubin səviyyəsinin tənzimlənməsi üçün körpələr mavi işıqla müalicə edilir. Əksər kosmetoloqlar, dermatoloqlar sızanaqların müalicəsində mavi işıqdan istifadə edirlər.

Bədənin aktiv hala gəlməsində mavi işığın rolu böyükdür. Xüsusilə insanlarda görülən D vitamini əksikliyi, günəşin ultrabənövşəyi və mavi dalğa boyundakı işıqlar vasitəsilə bədən tərəfindən təmin edilir. Bu baxımdan insan dərisinin mavi rəngə ehtiyacı var.

**Zərərləri də var...**

Bununla yanaşı, mavi işığın zərərləri də mövcuddur. Belə ki, dəridə problemlərə yol aça bilər. Bunun üçün də günəş şüalarından qorunmaq üçün kosmetoloqlar günəş kremindən istifadə etməyi tövsiyə edirlər.

Qadcetlərin mavi işığı istənilən dəriyə zərər verir. Melatonin istehsalına maneə törədir, nəticədə insan kifayət qədər yuxuya gedə bilmir və özünü yaxşı hiss etmir. Buna görə insan sağlamlığı üçün bir çox tövsiyələr arasında yatmadan bir neçə saat əvvəl telefon və digər cihazları bir neçə saat kənarda qoymaq məsləhət bilinir.

Böyük dozalarda görünən mavi işıq dəri üçün mənfi amil ola bilər. Eyni zamanda, eyni mavi işıq və ultrabənövşəyi şüalar dəri xəstəliklərinin müalicəsində istifadə olunan fototerapiyanın bir hissəsidir. Mavi işıq dəri ilə yanaşı göz üçün də zərərli ola bilər. Bu səbəbdən mütəxəssislər elektronik əşyalara baxarkən xüsusi eynəklərdən istifadəni tövsiyə edirlər.

**Ağ işıq verən lampaların orqanizmə zərərləri**

Ətrafa ağ işıq verən qənaətcil lampaların insan orqanizminə ziyanlı olduğu bildirilir. Belə ki, dünya alimləri elektrik enerjisinə qənaət edən luminiset (süd lampası və ya neon da deyilir) lampalarının 1 metrdən az məsafədə elektromaqnit çirklənmə ilə insan həyatı üçün təhlükə yaratdığını iddia edirlər. Mütəxəssislər belə lampalardan ən azı 1 metrlik məsafədə olmağı məsləhət görürlər.

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, bu lampaların yaydığı B və C şüaları üz dərisi və gözlər üçün zərərlidir. 1 metrdən daha az məsafədə isıq verəndə luminiset lampaları elektromaqnit çirklənmə yaradır və bunun insan üçün böyük ziyanı var.

Araşdırmalar onu da sübut edib ki, luminiset lampalarının ən zərərli cəhəti titrəmə effektinin olmasıdır. Hansı ki, bunun da nəticəsində gözlər yorulur. Həmin lampaların istifadəsi zamanı rənglər təhrif olunur. Təəssüf ki, dünyada işıq çirklənməsinin qarşısını alan real proqramlar geniş yayılmayıb. Halbuki işıq həyatın özüdür. Harada işıq varsa, orada ümid, inkişaf və həyat var. Buna görə də insanlıq əsrlər boyu işığı qorumağa, artırmağa və onun gücündən faydalanmağa çalışıb. Çünki işıq yalnız ətrafımızı deyil, gələcəyimizi də aydınlaşdırır.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5332**
**Sifariş: 637**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova